

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

14 mart 2026-cı il, şənbə
№ 048 (7115)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Dünyanın ən nüfuzlu liderlərindən biri

Bax səh. 2

## Regional təhlükəsizlik: Azərbaycan üçün hər zaman bir nömrəli məsələ...

### İlham Əliyev: Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik




Bax səh. 2

## Hökumət başçısı Milli Məclisə hesabat verdi

Bax səh. 3



Bax səh. 4

### YAP Sədrinin müavini ilə Kubanın Azərbaycandakı səfiri arasında görüş keçirilib

## Azərbaycan-Avropa İttifaqı iqtisadi əlaqələri yüksək səviyyədədir

Bax səh. 3



Bax səh. 4

### YAP Sədrinin müavini ilə Belarusun ölkəmizdəki səfiri arasında görüş keçirilib

### Revanşistlərin dəyirmanına su tökənlər...

Bax səh. 4

### İqtisadiyyatımız böyüyüb, gəlirlərimiz artıb

Bax səh. 5

### Ermənistan Azərbaycanın tələblərini yerinə yetirir...

Bax səh. 5

### Böyüyən şəhərlər, azalan yaşıllıq!

Bax səh. 6

## Qlobal enerji bazarında kritik durum - strateji neft ehtiyatlarından istifadə olunması gündəmdə



Bax səh. 6

# Dünyanın ən nüfuzlu liderlərindən biri



Dinamik inkişaf templərinə malik olan müstəqil Azərbaycanın Prezidenti İlham Əliyev hazırda bütün dünyada böyük hörmət göstərilən qlobal səviyyəli lider kimi qəbul edilir. Bunu təsdiqləyən çoxlu sayda faktlar sadalamaq mümkündür. Təkcə son vaxtlarda dövlətimizin başçısı müxtəlif coğrafiyalarda - Mərkəzi Asiyada, Körfəz ölkələrində, Avropa İttifaqı (Aİ) məkanında keçirilən müxtəlif beynəlxalq tədbirlərə fəxri qonaq qismində dəvətlər alıb. Belə tədbirlərdə Prezident İlham Əliyev hər zaman diqqət mərkəzində olub və qarşı tərəfin istəyi ilə çoxsaylı görüşlərə qatılıb. Eyni zamanda, dünyanın bir nömrəli güc mərkəzi sayılan Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Tramp İlham Əliyevi "çox güclü lider" kimi səciyyələndirib.

*** Bu günlərdə isə Azərbaycan Prezidentinin qlobal liderliyini təsdiqləyən daha bir xəbər gəlib. Söhbət ABŞ-nin milli təhlükəsizlik üzrə aparıcı eksperti Ceyms Cey Karafanonun "X"dəki hesabında etdiyi paylaşımdan gedir. Həmin paylaşımda bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən nüfuzlu 15 liderindən biridir.**

*** Beynəlxalq səviyyədə - nüfuzlu siyasətçilər arasında, aparıcı beyin mərkəzlərində, müxtəlif ekspert dairələrində Azərbaycan Prezidentinin şəxsinə belə yüksək dəyər verilməsi isə heç də təsadüfi deyil. Dövlətimizin başçısına yüksək hörmət və ehtiram Onun milli və qlobal səviyyədə sərgilədiyi məqsədyönlü fəaliyyətdən, fərqli baxış bucağından diqqət çəkən liderlik keyfiyyətlərindən qaynaqlanır.**

Milli səviyyədə xalqın tam etimadını qazanmaq hər bir liderin ən böyük uğurudur. İlham Əliyevin Azərbaycanda liderliyi 2003-cü ildən başlayıb. O, ilk dəfə dövlət başçısı seçildikdən sonra keçirlən andiçmə mərasimində hər bir azərbaycanlının Prezidenti olacağına söz vermişdi və ötən 22 ildə bu vədinə tam şəkildə əməl edib. Azərbaycan coğrafiyasına və əhali sayına görə kiçik ölkə olsa da, Prezident İlham Əliyev onu, sözün əsl mənasında, böyük etməyi bacarıb. İlham Əliyevi güclü lider kimi fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, O, genişmiqyaslı fəaliyyətinin enerjisini hər zaman xalqdan alır və xalqa ləyaqətlə xidmət etməyi özünün ali vəzifəsi sanır. Biz müşahidə edirik ki, İlham Əliyev heç vaxt hansısa bir mərhələdə qazanılan uğurla kifayətlənmir, daim yeni ümummilli ideyalar müəyyənləşdirir və milli gücü həmin ideyalar ətrafında konsolidasiya etməyi bacarır. Bu gün Azərbaycan ona görə güclü dövlətdir ki, onun İlham Əliyev kimi Lideri var. İlham Əliyev isə ona görə fateh Liderdir ki, Onun arxasında yenilməz güc - xalq var. Təkcə son dövrlərdə dünyada yaşanan bir sıra kataklizmlər milli dövlətlər üçün çox ağır sınaqlar olub. O cümlədən bəzi dövlətlər müharibələrin, iqtisadi böhranların, pandemiyanın gətir-

## Lider və milli gücün konsolidasiyası

diyi çətinliklərə dözə bilməyiblər və bir sıra hallarda xarici güclərdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşüblər. Azərbaycan bu kimi fəsadlardan yan ötən dövlətdir. Bunun təməlində dayanan əsas amil isə Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasətdir.

Hər bir ölkənin imkanları ilk növbədə onun iqtisadi gücü ilə ölçülür. Ötən 22 ildə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə geniş əhatə dairəsinə malik olan islahatlar reallaşdırılıb, ölkədə iqtisadi inkişaf üçün bütün şərtlər təmin edilib. Bunun nəticəsində də milli iqtisadiyyatımız dinamik şəkildə inkişaf edib. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqildir. Eyni zamanda, iqtisadi müstəqilliyin təmin edilməsi ölkəmizin milli maraqlar əsasında tam müstəqil siyasi kurs həyata keçirməsinə zəmin yaradıb.

İkinci Qarabağ müharibəsi və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı Lider ətrafında milli gücün konsolidasiyasının gözəl nümunəsidir. Azərbaycan 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla ərazi bütövlüyünün təmin edilməsinə nail oldu. 23 saatlıq lokal xarakterli antiteerror əməliyyatının nəticəsi olaraq isə ölkəmizin ərazisində separatizmə son qoyuldu, suverenliyimiz tam təmin edildi. Beləliklə də, İlham Əliyev tarixdə ölkənin ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Müzəffər Lider kimi qalacaq.

## Regionda sülh, dünyada sülh

Hazırda dünya çətin dönəmdən keçir. Beynəlxalq nizam və sabitlik pozulub. Müharibələr, qanlı toqquşmalar, milli-dini-etnik zəmində qarşıdurmalar bütövlükdə bəşəriyyətin təhlükəsizliyinə ciddi təhdidlər yaradır. Yaranmış vəziyyət təəssüf doğurur. Əsas məqam isə beynəlxalq birliyin bundan sonra dünyanın arxitekturasını hansı formada görməklə bağlı vizionunu ortaya qoyması və "gələcəyi necə qurmalı" sualına cavab tapması ilə bağlıdır. Vəziyyət o dərəcədə ciddidir ki, burada hər kəs öz məsuliyyətini anlamalı və birmənalı mövqe sərgiləməlidir. Bəşəriyyətin xilası naminə ziddiyyətli fikir ayrılıqlarına son qoyulmalı, konsensus, qalıcı sülh təmin edilməlidir.

Azərbaycan Prezidentinin fəaliyyətindən regionda və dünyada sülhün təmin edilməsi qırmızı xətt kimi keçir. Dünya tarixindən bəlli olduğu kimi, müharibələrin qalibi olan dövlətlər adətən məğlub ölkələrə şərtlər diktə edirlər. Ancaq qalib Azərbaycan müharibə başa çatdıqdan sonra heç bir ilkin şərt irəli sürmədən sülh təşəbbüsündən çıxış etdi və sonrakı mərhələdə böyük səylər ortaya qoymaqla tənzimləmə prosesinin irəliləməsinə nail oldu. Bu səylər nəticə verdi. Ötən il avqustun 8-də Vaşinqtonda, dünyanın bir nömrəli ofisində Azərbaycan, ABŞ, Ermənistan liderlərinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri yekun sülh sazişini parafladılar. Bununla da Prezident İlham Əliyevin təşəbbüsü ilə başlayan sülh prosesində mühüm addım atılmış oldu. Hazırda regionda faktiki olaraq sülh şəraiti var və etimad quruculuğu istiqamətində zəruri addımlar atılır.

Prezident İlham Əliyevin liderliyi ilə Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradan Azərbaycan həmçinin sülhün bütün dünya miqyasında təmin olunmasının tərəfdarıdır. Ölkəmizin bir qədər bundan əvvəl "Sülh Şurası"na yaradıcı (founding) üzv statusu ilə qoşulması bunun əyani təsdiqidir. İndiki şəraitdə ABŞ Prezidenti Donald Trampın ideya müəllifliyi və bilavasitə rəhbərliyi ilə "Sülh Şurası"nın yaradılması bəşəriyyəti xilas etmək, Qəzzada və digər ünvanlarda dağıntıları bərpa etmək üçün ümid işığı kimi görünür, Dünyada sülh tərəfdarı olan Azərbaycan da bu ideyanı dəstəkləyərək onun həyata keçməsində iştirak etmək əzmindədir.

Öz növbəsində beynəlxalq birlik Azərbaycan Liderinin sülh səylərini yüksək qiymətləndirir. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev daha bir nüfuzlu beynəlxalq təltifə - "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabi şəhərində mükafatın təqdimolunma mərasimi keçirilib. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın layiq görülməsi təkcə Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesinin irəliləməsinə, yekun sülh sazişinin paraflanmasına görə deyil, həm də Onun şəxsən sülhə, insan qardaşlığına və qlobal sabitliyə verdiyi misilsiz töhfələrə beynəlxalq ictimaiyyətin ən yüksək qiymət və ehtiramının bariz nümunəsidir.

## Beynəlxalq həmrəyliyin möhkəmlənməsinə verilən davamlı töhfələr

Azərbaycan Prezidentinin qlobal liderlik keyfiyyətlərindən bəhs edərkən Onun beynəlxalq həmrəyliyin möhkəmlənməsinə verdiyi davamlı töhfələrin önəmini xüsusi qeyd edə bilərik. Bir neçə il bundan əvvəl dünya yeni növ koronavirus pandemiyasının yaratdığı ciddi təhlükələrlə silkələndi. Pandemiya dövründə Azərbaycan Prezidenti yaranan yeni qlobal təhdidə qarşı beynəlxalq həmrəyliyin gücləndirlməsi təşəbbüsünü irəli sürdü və bu məqsədlə bir sıra addımlar atdı. Belə ki, Onun səyləri sayəsində Türk Şurasının, Qoşulmama Hərəkatının onlayn formatda sammitləri baş tutdu və mühüm müzakirələr aparıldı. Həmin çətin günlərdə Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq dünyaya humanizm nümunəsi göstərdi.. Belə ki, Qlobal səhiyyə böhranı dövründə reespublikamız özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının (QH) üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib.

Eyni zamanda, son vaxtlar daha da aktuallaşan iqlim çağırışlarına həssas yanaşması Azərbaycanın qlobal liderliyinə daha bir nümunə sayıla bilər. 2024-cü ilin noyabr ayında respublikamız BMT-nin iqlim konfransına - COP29-a uğurla ev sahibliyi etdi. COP29-un keçirilməsi üçün Bakının məkan seçilməsi beynəlxalq birliyin ölkəmizə və onun Liderinə artan inamının növbəti təsdiqi idi. Azərbaycan qısa müddətdə yüksək səviyyəli hazırlıqlar görməklə və konfransda bir sıra mühüm nəticələrə, xüsusilə də iqlim maliyyələşməsində, kiçik ada dövlətlərinə dəstək göstərilməsində irəliləyişlərə nail olmaqla bu etimadı yüksək səviyyədə doğrultdu.

Cari ildə isə respublikamız BMT-nin daha bir qlobal tədbirinə - bu dəfə şəhərsalma forumuna ev sahibliyi edəcək. Artıq foruma hazırlıq işləri tamamlanmaq üzrədir. Yenə də dünya gündəliyi Azərbaycanda müzakirə ediləcək.

## Hesabatda hansı liderlər yer alırlar?

Bəs Ceyms Cey Karafanonun təqdim etdiyi hesabatda hansı liderlərin adları yer alır? Paylaşımda oxuyuruq: "Bu günün ən yüksələn və nüfuzlu dünya liderlərinin siyahısı Miley (Argentina Prezidenti Xavyer Miley), Meloni (İtaliyanın Baş naziri Ciorcia Meloni), Kast (Çili Prezidenti Xose Antonio Kast), Stubb (Finlandiya Prezidenti Aleksandr Stubb), Modi (Hindistanın Baş naziri Narendra Modi), Takaiçi (Yaponiyanın Baş naziri Sanae Takaiçi), Navrotski (Polşa Prezidenti Karol Navrotski ), Dans ("Heritage" fondunun layihə rəhbəri Pol Dans), Əliyev (Azərbaycan Prezidenti İlham Əliyev), VI Məhəmməd (Mərakeşin Kralı VI Məhəmməd) , Zelenski (Ukrayna Prezidenti Volodimir Zelenski), Netanyahu (İsrailin Baş naziri Benyamin Netanyahu), Merts (Almaniya Kansleri Fridrix Merts) və öz liqasında tək olan Donald Trampdır (ABŞ Prezidenti Donald Tramp)".

Qeyd edək ki, Ceyms Cey Karafano Duqlas və Sara Allison xarici siyasət araşdırmaları mərkəzinin direktoru və "Heritage" fondunun Ketrin və Şelbi Kallom Devis beynəlxalq araşdırmalar institutunun vitse-prezidentidir. Karafano ABŞ Konqresində müdafiə, kəşfiyyat və vətən təhlükəsizliyi məsələləri üzrə ekspert kimi ifadə verib. Karafano, "Heritage"in antisemitizm əməliyyatlarının, o cümlədən "Esther" layihəsinin rəhbəridir.

*Mübariz ABDULLAYEV*

# Regional təhlükəsizlik: Azərbaycan üçün hər zaman bir nömrəli məsələ...

## İlham Əliyev: Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik

**Qlobal mühitdə təhlükəsizliyə qarşı yaranan təhdidlər günü-gündən artmaqdadır. Dünya son illərdə geosiyasi ziddiyyətlərin daha da kəskinləşdiyi, yeni hərbi-siyasi gündəmlərin ortaya çıxdığı, beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı bir mərhələdən keçir. Müharibələr, terrorizm, hibrid təhdidlər və kiber hücumlar beynəlxalq təhlükəsizliyi zəiflədən amillər kimi ön plana çıxır. Belə bir mühitdə təhlükəsizlik sisteminin qorunub saxlanılması, yeni çağırışlara adekvat mexanizmlərin formalaşdırılması və qlobal həmrəyliyin təmin olunması bəşəriyyətin qarşısında duran əsas vəzifələrdən biridir.**




## Dünyaya sülh və təhlükəsizlik çağırışları

Azərbaycan hər zaman dünyaya sülh və təhlükəsizlik çağırışları ilə yadda qalıb. Hətta 30 illik işğala məruz qaldığı dövrdə belə ölkəmiz regionun təhlükəsizlik arxitekturasına zərər gətirən bu amili belə sülh yolu ilə aradan qaldırmağa çalışıb. Bu mənada, Azərbaycan dünyaya ədalətli, beynəlxalq hüquqa söykənən, humanist, antoqonizmi inkar edilməsini hədəfləyən, daha çox danışıqlar və müzakirələr yolu ilə həll planlarının müəyyənləşdirilməsini özündə ehtiva edən siyasi yanaşma təqdim edir. Azərbaycan həm sivilizasiyalar, həm siyasi qütblər, həm də iqtisadi güc mərkəzləri arasında dialoqun mümkün olduğunu təlqin edir - uzun illərdir ki, ölkəmizin təşəbbüsü ilə reallaşan Qlobal Bakı Forumu da məhz bu ideyanın təşfiqini aparır. Qyed edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə baş tutan və "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr edilmiş XIII Qlobal Bakı Forumunun əsas ideya xətti də məhz təhlükəsizlik, sülh və əməkdaşlığın inkişafı kontekstini əhatə edib. Prezident İlham Əliyev tədbirdəki çıxışında bildirib ki, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır: "Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik".

## Məqsədə nail olmaq üçün...

Bakının son 6 ildə yaratdığı siyasi mənzərə özündə mühüm komplonentləri birləşdirir - regional baxımdan Cənubi Qafqazda, ümumən geosiyasi baxımdan Avrasiyada yeni bir nizamın şərtləri və gündəmi müəyyənləşib. Qeyd edildiyi kimi, ölkəmiz təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında sülhün və sabitliyin təmin olunmasına töhfə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diplomatiya, beynəlxalq tərəfdaşlıq platformaları və təhlükəsizlik təşəbbüsləri Azərbaycanın bu sahədə etibarlı tərəfdaş kimi qəbul olunmasına şərait yaradıb. Azərbaycanın həyata keçirdiyi siyasətin yalnız regional deyil, qlobal təhlükəsizlik indeksinin artırılmasına yönəlməsi ölkəmizin beynəlxalq müstəvidə artan nüfuzunu və strateji əhəmiyyətini təsdiqləyir. Bakı platforması beynəlxalq miqyasda sülhün qorunması, risklərin azaldılması və gələcək təhlükəsizlik modelinin formalaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir. Dövlət başçısı çıxışında qeyd edib ki, regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. "İşğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik".

## Güclü siyasi iradənin nəticəsi...

Azərbaycan nümunəsində Cənubi Qafqazda artıq müharibə riski aradan qaldırılıb - separatizm məhv edilib. Ən əsası, Ermənistanın destruktiv siyasətdən uzaqlaşması üçün real mexanizm formalaşdırılıb. Azərbaycanın təhlükəsizlik fəlsəfəsi paralel inkişaf trayektoriyasına əsaslanır - biz sülh üçün beynəlxalq hüquq çərçivəsində mübarizəmizi ortaya qoyaraq, həm də digər vasitələri diqqətdə saxlayırıq. 30 illik problemin həllində də məhz bu amil ön plana çıxdı - Azərbaycan öz torpaqlarını iradəsi, hərbi gücü və qətiyyəti sayəsində azad etdi. Hərbi yola əl atılması isə zərurətə çevrildi - beynəlxalq aləmin məsələyə münasibətdə fərqli standartlar tətbiq etməsi, BMT TŞ-nin məlum 4 qətnaməsinin icra edilməməsi, hətta müəyyən anlarda işğalçının stimullaşdırılması Bakını məhz beynəlxalq hüququn tanıdığı imkanlar çərçivəsində ərazilərini azad etməsini şərtləndirdi. Məhz torpaqlarımızın azad edilməsi, suverenliyimizin bərpası növbəti mərhələdə regional təhlükəsizliyin dayanqılığı üçün mümkün addımların ardını gətirdi - burada da qlobal dünya Bakının sülh siyasətini izlədi. Qalib dövlət olmasına baxmayaraq Azərbaycan sülh təşəbbüsü ilə çıxış etdi. Və artıq proses mühüm bir mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi: "Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur".

## Ermənistan müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq

Sülh isə öz növbəsində yeni perspektivlər, yeni əməkdaşlıqlar və yeni inkişaf mərhələsi deməkdir. Azərbaycanın yürütdüyü siyasətin fəlsəfəsində də məhz bu amillər ön plandadır - bu fəlsəfə iqtisadi əlaqələr sisteminin qurulmasını, enerji davamlılığını və kommunikasiya marşrutlarının şaxələndirilməsini özündə ehtiva edir. İki qitənin qovşağında yerləşən Azərbaycan bölgədə sülhün dayanıqlığını təmin etməklə həm yeni enerji təhlükəsizliyi seqmentində, həm də Orta Dəhliz boyunca yüklərin təhlükəsiz daşınmasında əsas zəmanətçi ölkə kimi çıxış etmək imkanı qazanır. Sülhün və sabitliyin zərurət olduğu coğrafiyada dünyanın güclü aktorları - Avropa İttifaqı, Çin, Türkiyə, Mərkəzi Asiya ölkələri, o cümlədən ABŞ Azərbaycanla əməkdaşlığı prioritet elan edirlər. Çünki bu əməkdaşlıq təkcə iqtisadi deyil, həm də təhlükəsizlik baxımından əsaslı mexanizmlər formalaşdırıb. Bu, Azərbaycanın Avrasiyanın "heartland"ı statusunun əsas şərtlərindən biridir: Bakı təkcə coğrafi mərkəz deyil, həm də təhlükəsizlik məntiqinin mərkəzidir. Təhlükəsizlik məntiqi isə öz növbəsində yeni ticari aortanın - Zəngəzur dəhlizinin (TRİPP) reallaşmasını təmin edir. Dövlət başçısı çıxışında qeyd edib ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir: "Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Prezident qeyd edib ki, Ermənistanla sülh əldə edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. "Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini - əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq".

*P.İSMAYILOV*

# Azərbaycan-Avropa İttifaqı iqtisadi əlaqələri yüksək səviyyədədir

## Tərəflər münasibətləri daha da inkişaf etdirmək üçün əhatəli ikitərəfli saziş sənədi hazırlayır

Azərbaycan Avropa İttifaqı (Aİ) ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətləri davamlı olaraq inkişaf etdirməkdədir. Aİ ilə Şərq Tərəfdaşlığı proqramı çərçivəsində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq çoxsaylı layihələrin və təşəbbüslərin icrasını təmin etməklə, münasibətləri yüksək səviyyəyə çatdırıb. Hər iki tərəf son illərdə münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradan mühüm sazişlər və anlaşma sənədləri imzalayıb. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın martın 11-də Azərbaycana səfəri isə uğurla inkişaf edən ikitərəfli əlaqələrin daha da inkişafında mühüm rol oynayacaq.

Azərbaycan-Aİ tərəfdaşlığının ən mühüm prioritetləri sırasında iqtisadi sahədə nümunəvi əməkdaşlıq mühüm yer tutur və tərəflər enerji, nəqliyyat, rəqəmsal texnologiyalar, investisiya mübadilələri ilə təmasları yüksək səviyyəyə çatdırmağa nail olub. Ötən illər ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi yaxın tərəfdaşa çevrilmiş Azərbaycan 2020-ci ilin dekabr ayından Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə Avropa İttifaqına qaz bazarına da daxil olub. 2022-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında enerji sahəsində imzalanmış Strateji Tərəfdaşlıq haqqında Saziş enerji əməkdaşlığında yeni mərhələnin əsasını qoyub və həmin il Azərbaycan Avropa regionuna 11 milyard kubmetrdən çox qaz ixrac edib. 2023-cü ildə bu rəqəm 12 milyard, 2024-cü ildə 13 milyard, 2025-ci ildə isə 13,5 milyard kubmetr təşkil edib. Bu, enerji qətiyyəti və şaxələndirmə Azərbaycanın Aİ coğrafiyasının əhəmiyyətli bir hissəsini yanacaqla təmin etməsini möhkəmləndirir və Azərbaycandan qaz almaq istəyən ölkələrin sayı artır.

**Pan-Avropa enerji təchizatçısı**

Azərbaycan Avropa enerji ailəsinin ən sadiq üzvü kimi uzunmüddətli təminat blokunda yer almaqla, yanacağın həcmlərinin artırılması və şaxələndirilməsi ilə coğrafiyanı da genişləndirib. Hazırda Azərbaycanın qaz nəql etdiyi 16 dövlətin 10-u Aİ ölkələridir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır. Mövcud proqnozlara görə, 2026-2028-ci illərdə ölkəmizin Avropa regionuna ixracı 15-16 milyard kubmetrə çatacaq. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Prezident İlham Əliyevin bəyan etdiyi kimi növbəti iki və ya üç il ərzində minimum 10 milyard kubmetr əlavə qazımız olacaq. Yanacağın böyük bir qismi də məhz Avropa qitəsinə yönləndiriləcək. Tərəflər arasında sadiqlik və həmrəylik amili nəzərə alınmaqla, uzunmüddətli vacib enerji platforması qurulacaq. Cənab Antonio Koştanın da etiraf etdiyi kimi Azərbaycanın Avropa ölkələrinin enerji təchizatının şaxələndirilməsində rolu nəzərə alınaraq bu istiqamətdə mövcud imkan resurslarının daha da diversifikasiyası nəzərdə tutulur. Mövcud möhkəm hüquqi çərçivə sənədinə əsasən, Cənub Qaz Dəhlizinin nəql infrastrukturlarının artırılması da bu ssenariyə daxildir.



**Ticarət dövriyyəsinin artırılması, "yaşıl enerji" nəqlinə hazırlıq**

Əməkdaşlığın digər gündəliyi bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığın genişləndirilməsi və Azərbaycanın "yaşıl potensialı"nın Avropaya tədarükü, Qara dəniz sualtı kabeli layihəsinin qlobal bağlantıya çevrilməsinin başa çatdırılması ilə bağlıdır. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji tərəfdaşlığının yeni mərhələdə inkişafı məqsədilə yaradılan yüksək səviyyəli enerji dialoqu da bu prioritetləri əks etdirir. 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in tələblərinə əsasən, dörd ölkənin - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə daha geniş format yaradılıb. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" və ya "Qara dəniz kabeli" adlanan layihə Azərbaycanın külək və Günəş enerjisi stansiyalarından əldə edilən "yaşıl enerji"nin Avropaya nəqlini nəzərdə tutur. "Həmrəylik halqası" marşrutu sxeminə əsasən, Xəzər-Aİ "yaşıl enerji" dəhlizi Avropaya təhlükəsiz və etibarlı mənbədən bərpaolunan enerji resurslarını nəql etməklə, Azərbaycanın ixracının şaxələnməsini təmin edəcək.

Azərbaycanla Avropa İttifaqı ölkələri arasında ticarət dövriyyəsinin dəyəri və strukturu da hər il artmaqdadır. Ölkəmizin əmtəə dövriyyəsinin 50 faizi Aİ ilə bağlıdır. Bu, onu göstərir ki, Avropa İttifaqı ölkəmiz üçün bir nömrəli ticari tərəfdaşdır. Bu həcmləri daha da artırmaq üçün hər iki tərəf dayanmadan öz səylərini yüksəldir, yeni imkanları araşdırır. Cənab İlham Əliyevin də vurğuladığı kimi yeni layihələri və investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq və ticari dövriyyələrimiz birmənalı olaraq artacaq. Hazırda Azərbaycan Aİ ilə ticarət dövriyyəsinin daha da artırıması üçün çoxşaxəli ixrac xəritəsi üzərində işləyir və gələcək dövrdə əməkdaşlıqda qeyri-neft məhsullarının ixracının artırılması hədəflənib.

**Qarabağ və Şərqi Zəngəzur quruculuğunda Aİ-nin fəal rolu artır**

Azərbaycanın regional daşımalarda, xüsusilə də Orta Dəhliz vasitəsilə Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında nəqliyyat, ticarət, enerji və rəqəmsallaşma sahələrində əlaqələrin gücləndirilməsində oynadığı aparıcı rolu Aİ tərəfindən təqdir edilir. Avropa İttifaqı "Qlobal Qapı" çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-in icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bəyan edib ki, bu da bölgədə geniş strateji yol xəritəsinin həyata keçməsini sürətləndirəcək.

Aİ Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı yenidənqurma və inkişaf səylərinə də dəstək vermək niyyətini bəyan edib ki, bu da regionda humanitar dəstək və beynəlxalq maliyyə çərçivəsinin qurulmasına imkan verəcək.

Azərbaycanın ortamüddətli inkişaf hədəflərinin reallaşmasında da Avropa İttifaqının təcrübə və yüksək iqtisadi fəaliyyət imkanlarından istifadə nəzərdə tutulur. Belə ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin həyata keçirilməsində tərəflərin birgə ortaq layihələr icra etməsi istisna olunmur. Bu format ticarət, daşımalar, sərmayə, iqtisadi dayanıqlılıq və təmiz enerji daxil olmaqla, müvafiq prioritet sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını genişləndirmək üçün əla fürsət deməkdir.

**Viza rejiminin sadələşdirilməsi**

Hər iki tərəf rəqəmsal transformasiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyini də qeyd ediblər. Bura süni intellekt və inkişaf etməkdə olan digər texnologiyaların artan əhəmiyyəti fonunda Aİ-nin qabaqcıl təcrübəsindən istifadəni artırmaq, qitənin nəhəng innovasiya korporasiyalarının Azərbaycana gəlişini stimullaşdırmaq və davamlı artıma yönəlmiş rəqəmsal ekosistemləri təşviq etmək niyyətlərini də bəyan edib. Qarşılıqlı səyahətləri daha da asanlaşdırmaq məqsədilə Viza Sadələşdirilməsi Sazişinin davamlı icrası da əməkdaşlıq prioritetləri sırasında yer tutur. Bu, turizm, xidmət və s. sahələrdə əlaqələri daha da gücləndirəcək.

Azərbaycan və Aİ arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradacaq yeni əhatəli ikitərəfli saziş üzrə danışıqlar da intensivləşib və tez bir zamanda yekunlaşması nəzərdə tutulur. Eyni zamanda, yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsi və bütün sahələrdə ikitərəfli gündəliyi daha da irəli aparmaq üçün Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının fəaliyyətinin artırılması barədə razılığın əldə olunması iqtisadi, ticari və investisiya sahələrində yeni potensiallar formalaşdıracaq. Bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında davamlı inkişafın təşviqinə töhfə verir.

Beləliklə, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfəri Azərbaycan-Aİ münasibətlərini yeni inkişaf mərhələsinə çatdırmaqla bölgədə rifah və əməkdaşlıq quruculuğunu gücləndirəcək.

***E.CƏFƏRLİ***

# Hökumət başçısı Milli Məclisə hesabat verdi



Martın 13-də Milli Məclisin növbəti iclası keçirilib. İclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı dinlənilib. Spiker Sahibə Qafarova bildirib ki, milli tariximizə "Konstitusiya və Suverenlik İli" kimi daxil olan 2025-ci il Azərbaycan dövlətinin siyasi və hüquqi yetkinliyinin rəmzinə çevrilib, eyni zamanda, ölkəmizin ardıcıl və dinamik inkişafında yeni mərhələ təşkil edib. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti həm ölkə daxilində, həm də beynəlxalq arenada çoxsaylı böyük uğurların əldə olunmasına şərait yaradıb.

Onun sözlərinə görə, həyata keçirilən müstəqil və düşünülmüş xarici siyasət Azərbaycanı beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirib: "Dövlətimiz regional və qlobal məsələlərin həllində fəal iştirak edib, enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat dəhlizlərinin inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr verib. Azərbaycanın 8 böyük müsəlman ölkəsini birləşdirən D-8 beynəlxalq təşkilatına qəbul edilməsi, Orta Asiya ölkələrinin Məşvərət Şurasının tam hüquqlu üzvü olması böyük tarixi nailiyyətlərdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən Zirvə Görüşü dövlətimizin siyasi və iqtisadi gücünü bir daha nümayiş etdirib. Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən Zirvə Görüşü isə türk dünyasının inteqrasiyası yolunda mühüm addım olub".

Spiker deyib ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına şərait yaradır, iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakını təmin edir. "Onu da deyim ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təklif və tövsiyələr, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılıb. Bu təklif və tövsiyələrin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilib. Eyni zamanda, artıq 6 ildir ki, hesabata ayrıca olaraq, sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə Milli Məclis deputatlarının təkliflərinin icrasına dair məlumat da daxil edilir", - deyə S.Qafarova vurğulayıb.

**Baş nazir: Strateji valyuta ehtiyatlarımız 91 milyard dollara çatıb**

Sonra hesabatı təqdim edən Baş nazir Əli Əsədov bildirib ki, bu gün regionda cərəyan edən mürəkkəb geosiyasi proseslər, artan gərginlik və risklər fonunda Prezident İlham Əliyevin ardıcıl və praqmatik xarici siyasət kursu, uzaqgörən strateji baxışı və milli maraqlara əsaslanan prinsipial mövqeyi nəticəsində Azərbaycanın suverenliyi və sərhədlərinin toxunulmazlığı etibarlı şəkildə təmin olunmaqdadır. "Ötən həftə İran ərazisindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində pilotsuz uçuş aparatlarının istifadəsi ilə bağlı hadisə baş verib. Bu xoşagəlməz hadisə fonunda Azərbaycan cəmiyyəti və beynəlxalq ictimaiyyət bir daha əmin oldu ki, Prezident İlham Əliyev xalqının təhlükəsizliyini qoruyan və hər zaman öz xalqının arxasında duran güclü liderdir. Onu da əlavə edim ki, son dövrdə regionda cərəyan edən hadisələr Azərbaycanın quru sərhədlərinin bağlı saxlanılması qərarının nə qədər əsaslı və zəruri olduğunu göstərir, eyni zamanda Prezidentin uzaqgörən və müdrik dövlətçilik siyasətinin növbəti təsdiqidir",- Ə.Əsədov əlavə edib ki, hesabat ilində ölkəmizdə ÜDM-in real həcmi əvvəlki illə müqayisədə 1,4% artaraq 129,1 mlrd. manat olub. Qeyri-neft sektoru isə real ifadədə 2,7% artaraq 92,3 mlrd.manata çatıb. İqtisadiyyatda ümumi əlavə dəyərin 72%-i məhz qeyri-neft sektorunda yaranıb. Qeyri-neft-qaz sənayesində 5,5% artım olsa da, neft-qaz sektorunda 1,6% azalma baş verib. Neft hasilatının azalması fonunda ümumi iqtisadi artımın qorunması məhz qeyri-neft sektorunun genişlənməsi hesabına mümkün olub. Hesabat dövründə strateji valyuta ehtiyatları ilin əvvəlindən təqribən 14.1 mlrd. dolar və ya 20% artaraq 85 mlrd. dolları keçib. Hazırda bu göstərici 91 mlrd dollardır. Bu, ÜDM-dən 12% çoxdur və dünyada adambaşına düşən ehtiyatlara görə ən yüksək göstəricilərdən biridir. Bu göstərici xarici dövlət borcunu (4,8 mlrd. dollar) 18 dəfəyədək üstələyir.

**Ölkəmiz 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir**

Baş nazir diqqətə çatdırıb ki, 2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifah halının yaxşılaşdırılması üçün sosial siyasət tədbirləri davam etdirilib. Əhalinin real gəlirlərinin yüksəldilməsi məqsədilə sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub. 2025-ci ildə əhalinin nominal gəlirləri və orta aylıq əməkhaqqı artımı illik inflyasiya səviyyəsini üstələyib. 2025-ci il dövlət büdcəsi xərclərinin 39,5%-i və ya 15,3 mlrd. manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib. Bu, 2024-cü illə müqayisədə 601,5 mln. manat və ya 4,1% çoxdur. Son yeddi il ərzində 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi icra olunub ki, bu məqsədlərə təqribən 8 mlrd. manat məbləğində vəsait sərf edilib. Təkcə keçən il 1,4 milyard manat büdcə vəsaiti bu məqsədlər üçün xərclənib. Maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir. Təhsil, səhiyyə və sosial müdafiəyə ayrılan vəsaitlərin artımı isə iqtisadi inkişaf üçün dayanıqlı insan kapitalı bazası yaradır. Dövlət büdcəsindən təhsil və elm xərclərinə 4.8 milyard manatdan artıq vəsait ayrılıb. 2025-ci ildə 31 təhsil müəssisəsində (o cümlədən 11-i Heydər Əliyev Fondu tərəfindən) işlər yekunlaşdırılıb, 97 təhsil müəssisəsində (o cümlədən 70 modul tipli ) isə tikinti-quraşdırma işləri davam edir. Eyni zamanda, 959 təhsil müəssisəsində, o cümlədən 10 peşə, 4 kollec, 185 məktəbəqədər və 760 ümumi təhsil müəssisəsində cari təmir işləri aparılıb. Hesabat ilində əhalinin sağlamlığının qorunması, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə səhiyyə xərcləri sahəsinə büdcədən təxminən 1.3 milyard manat vəsait ayrılıb. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilib, müharibə zamanı 500-dən artıq əlil olmuş hərbçi dövlət tərəfindən ən müasir protezlərlə təmin edilib.

Ə.Əsədov diqqətə çatdırıb ki, 2025-ci ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri artırılıb: "Bu, ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin olunmasının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu nümayiş etdirir. Bu məqsədlə 2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8.1 milyard manat vəsait ayrılıb. Ötən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir. Mövcud geosiyasi şərait nəzərə alınaraq, əldə olunmuş nəticələrin qorunmasına, o cümlədən təhlükəsizliyin möhkəmləndirilməsinə, müdafiə qabiliyyətinin artırılmasına, sərhədlərin toxunulmazlığına, milli maraqların müdafiəsinə bundan sonra da ardıcıl diqqətin göstərilməsi olduqca mühüm əhəmiyyət kəsb edir".

**Böyük Qayıdışa dair II Dövlət Proqramının layihəsi hazırlanıb**

Baş nazir işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər haqqında da ətraflı məlumat verib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə mövcud infrastrukturun bərpası və yenisinin inşası, yaşayış məntəqələrinin yenidən qurulması və sosial-iqtisadi həyatın canlandırılması istiqamətində genişmiqyaslı işlər uğurla davam etdirilir: "Hesabat ilinin sonuna işğaldan azad edilmiş bölgələrdə yaşayan (məskunlaşan, işləyən və oxuyan) əhalinin sayı təqribən 75 min nəfər təşkil edib. Bu ərazilərin yenidən qurulması və bərpası üçün 2020-2025-ci illərdə dövlət büdcəsindən 22 milyard manat, o cümlədən təkcə ötən il 4.4 milyard manat vəsait ayrılıb. 2026-cı ildə bu məqsədə 3,5 milyard manat vəsait nəzərdə tutulub. Beləliklə, bu il də daxil olmaqla dövlət büdcəsindən, ümumilikdə, 25,5 milyard manat vəsait ayrılıb".

Qeyd olunub ki, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və onun əsasında hazırlanan 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının hazırda uğurla icrası davam edir. Strategiyanın davamı olaraq, "2027-2030-cu illərin sosial-iqtisadi inkişaf Strategiyası və Böyük Qayıdışa dair II Dövlət Proqramının" layihəsi hazırlanıb, İqtisadi Şurada müzakirə olunub. Sənədin layihəsi hökumət tərəfindən dövlət başçısına təqdim olunub.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri də davam etdirilir. 2025-ci ildə 69.2 min hektar, ümumilikdə isə 2020-ci ildən azad edilmiş ərazilərdə 249 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib, ümumilikdə tapıntıların sayı 237 min ədəd təşkil edib. 2026-cı ildə isə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

Ə.Əsədovun sözlərinə görə, hesabat ilində xüsusilə nəqliyyat, logistika və informasiya-rabitə sahələrində müşahidə olunan dinamika iqtisadiyyatın yeni artım mənbələrinin formalaşdığını göstərir. 2025-ci ildə qeyri-neft ÜDM-nin 13%-i bu sahələrin hesabına formalaşıb. Yük və sərnişin daşımalarının artması Azərbaycanın regional tranzit rolunun möhkəmləndiyini təsdiqləyir və Orta Dəhliz strategiyasının real prosesə çevrildiyini göstərir. 2025-ci il ərzində ölkə üzrə 539 km, o cümlədən regionlarda 332 km respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilib, yenidən qurulub və əsaslı təmir olunub, 84 km dəmir yolu xətti yenidən qurulub, 7 dəmir yolu tuneli və körpüsü tikilib və əsaslı təmir olunub. Baş nazir deyib ki, hazırda hökumətin əsas vəzifəsi enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirmək və enerji sistemimizi gücləndirməkdir: "Mövcud planlara görə, biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Bərpa olunan enerji sahəsində də böyük potensialımızın reallaşdırılması məqsədilə dünyanın aparıcı ölkələrinin şirkətləri ilə səmərəli əməkdaşlıq qurulub. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr ölkəmizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, enerji mənbələrinin şaxələndirilməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir".

Bununla yanaşı, Ə.Əsədov qaz təchizatı coğrafiyasının genişləndirilməsi və yeni ixrac marşrutlarının inkişafı istiqamətində ardıcıl və məqsədyönlü siyasətin həyata keçirildiyini söyləyib. Onun sözlərinə görə, 2025-ci il ərzində ixrac boru kəmərləri vasitəsilə ümumilikdə 25,2 mlrd. kubmetr qaz ixrac edilib: "Ötən il Azərbaycan qazını alan ölkələrin sayı artaraq 14-ə yüksəlib. Hazırda bu ölkələrin sayı 16-ya çatıb. Belə ki, Avropanın daha iki ölkəsinə - Almaniya və Avstriyaya qaz tədarükünə başlanılıb".

Çıxışının sonunda Baş nazir əmin edib ki, Prezident tərəfindən hökumət qarşısında müəyyən edilmiş bütün hədəflər və verilən tapşırıqlar bundan sonra da tam məsuliyyətlə, vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcək.

İclasda çıxış edən millət vəkilləri hökumətin hesabatı ilə bağlı fikir və təkliflərini bildiriblər. Müzakirələrdən sonra Nazirlər Kabinetinin illik fəaliyyətinə dair hesabat qəbul olunub.

***Nardar BAYRAMLI***

# YAP Sədrinin müavini ilə Kubanın Azərbaycandakı səfiri arasında görüş keçirilib





Martın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kuba Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon arasında görüş keçirilib.

Görüşdə dövlət başçıları - Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Kuba Respublikasının Prezidenti, Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Miqel Mario Dias-Kanel Bermudesin ölkələrimiz arasında bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanan ikitərəfli münasibətlərin inkişafına böyük önəm verdikləri vurğulanıb. İqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə səmərəli əməkdaşlıq üçün mühüm potensialın mövcud olduğu qeyd edilib.

İki dost ölkənin hazırda mürəkkəb geosiyasi şəraitdə - yeni dünya nizamına transformasiya ərəfəsində fəal və konstruktiv siyasət həyata keçirərək milli təhlükəsizliyin və dövlət maraqlarının qorunması ilə bağlı prinsipial mövqe nümayiş etdirdikləri bildirilib. Regional və beynəlxalq təhlükəsizliyə təhdid yaradan hallara qarşı qətiyyətli mübarizənin önəmi, həmçinin bütün məsələlərin dialoq və diplomatiya yolu ilə sülh şəraitində həllinin vacibliyi vurğulanıb. BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində səmərəli işbirliyini davam etdirən Azərbaycan ilə Kubanın beynəlxalq hüquq normalarına əsaslanaraq bir-birinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə birmənalı dəstək verdikləri qeyd olunub.

Görüşdə dövlətlərarası münasibətlərin inkişafında Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının (KKP) rolu diqqətə çatdırılıb. 2025-ci ilin noyabr ayında YAP nümayəndə heyətinin Kubaya səfəri, eləcə də səfir Karlos Enrike Valdes de la Konsepsyonun ötən ilin oktyabrında YAP-ın ev sahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Bakıda keçirilən tədbirində KKP-ni təmsil etməsi məmnunluqla xatırlanaraq məhsuldar görüşlərin keçirilməsinin, faydalı fikir və təcrübə mübadiləsi aparılmasının, partiyalar arasında çoxşaxəli əməkdaşlığın əsas istiqamət və prioritetlərini müəyyənləşdirən Əməkdaşlıq Sazişinin imzalanmasının əhəmiyyəti qeyd edilib. Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində qarşıda duran hədəflərin gerçəkləşdiriləcəyinə inam ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər də müzakirə edilib.

# YAP Sədrinin müavini ilə Belarusun ölkəmizdəki səfiri arasında görüş keçirilib





Martın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç arasında görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Belarusun bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Siyasi, iqtisadi, ticari, turizm, səhiyyə, elm, təhsil, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin dövlət başçıları - Prezident İlham Əliyev ilə Prezident Aleksandr Lukaşenkonun diqqət mərkəzində olduğu vurğulanaraq iki ölkənin qlobal müstəvidə bir-birinin mənafelərinin qorunmasına böyük əhəmiyyət verdikləri bildirilib. Beynəlxalq platformalarda qarşılıqlı dəstəyin müştərək strateji hədəflərin reallaşdırılması baxımından önəmi qeyd olunub.

Görüş zamanı Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri də müzakirə olunub. 2025-ci ilin may ayında YAP nümayəndə heyətinin "Belaya Rus" Partiyasının təşkilatçılığı ilə Minskdə keçirilən beynəlxalq partiyalararası konfransda, "Belaya Rus" Partiyası nümayəndələrinin isə YAP-ın təşkilatçılığı ilə ötən il Şuşada keçirilən beynəlxalq konfransda iştirakı məmnunluqla vurğulanıb. Ölkələrimizin səmimi dostluq münasibətlərinin hakim partiyalar arasında əlaqələrin inkişafına əlverişli zəmin yaratdığı qeyd olunaraq gənclər arasında da təmasların sıxlaşdırılmasının vacibliyi diqqətə çatdırılıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin də müzakirə olunduğu görüşdə səfir cari ilin may ayında "Belaya Rus" Partiyasının təşkilatçılığı ilə Brest şəhərində keçiriləcək "XXI əsrdə çoxqütblülük və müxtəliflik şəraitində dövlət suverenliyi və beynəlxalq münasibətlərin prinsipləri" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün YAP nümayəndə heyətini ölkəsinə səfərə dəvət edib.

# Revanşistlərin dəyirmanına su tökənlər...

## Qərbi Azərbaycan İcması avropalı parlamentarilərin ittihamlarını qınayıb

Avropa Parlamentinin bir qrup üzvü Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasa Azərbaycana qarşı böhtan və nifrət ruhunda məktub ünvanlayıb.

Qərbi Azərbaycan İcması buna etiraz əlaməti olaraq bəyanat yayıb.

Bəyanatda bildirilib ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanması, hətta ticarət əlaqələrinə başlanması, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana rəsmi səfəri fonunda avropalı parlamentarilər bu yanaşma ilə Ermənistanda və ondan kənarda revanşist dairələrin dəyirmanına su tökürlər. Bu xüsusda, qondarma rejimin törə-töküntülərinə "France 24" kanalında efir verilməsi də çoxsaylı suallar doğurur. Bölgədə sülhün bərqərar olması Avropada hələ də Azərbaycana qarşı "köhnə bayatılar"dan əl çəkməyən bəzilərini, görəsən, niyə bu qədər narahat edir?!

"Qarabağdan könüllü getmiş ermənilərin qayıdışından dəm vuran avropalı parlamentarilərin biz qərbi azərbaycanlıların Ermənistanda öz dədə-baba yurdlarına qayıdış hüququnu danmasını, insan haqları, humanitar problemlərə etnik və dini təəssübkeşlik prizmasından baxmasını şiddətlə qınayırıq", - deyə Qərbi Azərbaycan İcmasının bəyanatında vurğulanıb.

# İqlim əməkdaşlığı Bakı Forumunda gündəmə gətirilib

XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən paneldə "Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə" mövzusu müzakirə olunub.

"Fortescue Ltd." şirkətinin Direktorlar Şurasının üzvü Jean Baderschneiderin moderatorluğu ilə keçirilən panel iclasda COP-un qlobal iqlim gündəminin əsas platforması kimi fəaliyyətini davam etdirməsinin vacibliyi, siyasi fikir ayrılıqları və beynəlxalq gərginliklər fonunda COP mexanizminin effektivliyini qorumağın yolları ətrafında fikir mübadiləsi aparılıb.

COP31-in sədri və Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum Qlobal Bakı Forumu çərçivəsində hər kəsin öz COP təcrübəsini bölüşə bildiyi mühit yaratdığı üçün Azərbaycana təşəkkür edib: "Biz bu gün də "İki dövlət, tək millət" olmaqdan qürur duyuruq və Azərbaycanda olmaqdan böyük məmnunluq hiss yaşayırıq. Həmçinin qəlbi hər zaman Azərbaycan üçün döyünən Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını, sevgisini bütün azərbaycanlı dostlara və buradakı iştirakçılara çatdırmaq istəyirəm".

Murat Kurum XIII Qlobal Bakı Forumunun çox kritik bir vaxtda keçirildiyinə diqqət çəkib. Onun sözlərinə görə, dünyada əməkdaşlıq dialoqu sahəsində atılan hər bir addım çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev çoxtərəfliliyin böyük təzyiq altında olduğuna diqqət çəkib: "Bütün BMT sistemi böyük təzyiq altındadır. Buna görə də yalnız COP-da müsbət və uğurlu nəticələr əldə etmək üçün deyil, həm də əvvəlki COP-larda razılaşdığımız qərarları həyata keçirmək üçün çox sıx işləməliyik". Təhlükəsizlik, müdafiə və hərbi çağırışların ölkələri bu istiqamətlərə getdikcə daha çox vəsait ayırmağa vadar etdiyini diqqətə çatdıran M.Babayev dövlətlərin müharibə və münaqişələrdən qorunma yolları axtardıqlarını deyib. Lakin iqlim dəyişikliyi artıq bir reallıqdır və hər kəs bu dəyişikliklərlə üzüzədir.




Mərakeşin keçmiş xarici işlər və əməkdaşlıq naziri, COP22-nin prezidenti Salaheddine Mezouar bildirib ki, iqlim dəyişikliyi qlobal çağırışdır və bunun həlli üçün universallıq, qlobal əməkdaşlıq vacibdir. Onun sözlərinə görə, COP sistemi konsensus üzərində qurulub ki, bu da legitimlik və hər ölkənin səs hüququnu təmin edir. Lakin yekdillik tələb edən qərarlar irəliləyişi ləngidə bilər.

Polşanın keçmiş iqlim və ətraf mühit naziri, COP24-ün prezidenti Michal Kurtyka vurğulayıb ki, COP-ların əsası 1995-ci ildə qoyulsa da, bu gün dünya fərqli və çətin şəraitdədir. Müharibələr, aclıq, enerji təhlükəsizliyi və digər insani böhranlar iqlim müzakirələrini əhatə edən kontekstə təsir göstərir.

Misirin keçmiş xarici işlər naziri, COP27-nin prezidenti Sameh Şoukrinin sözlərinə görə, COP müzakirələrində ənənəvi yanacağa hələ də böyük asılılıq var və qlobal çağırışlar bütün ölkələr üçün aktualdır. Onun fikrincə, maliyyələşmənin artırılması vacibdir, lakin ən əsas problem Qlobal Cənub və Qlobal Şimal arasındakı parçalanmadır. O vurğulayıb ki, ümumi iqlim məqsədlərinə çatmaq üçün bütün tərəflər bir araya gəlməli və əməkdaşlıq etməlidir.

"Vital Voices Global Partnerships" təşkilatının İqlim Ədaləti Proqramının rəhbəri Hafsat Abiola Azərbaycanın COP29 zamanı bütün dünyanı yüksək səviyyədə qarşıladığını deyib: "Ümid edirəm ki, Türkiyə ilə bu istiqamətdə çox yaxından əməkdaşlıq edəcəyik və Efiopiyada da görüşmək imkanımız olacaq. Çünki Efiopiya bizim üçün mühüm ölkədir. O, Afrikanın müstəmləkəçiliyə məruz qalmayan yeganə dövlətidir".

Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov Braziliyada keçirilən COP-un təcrübəsinə əsaslanaraq, iqlim proseslərinin davamlılığının təmin edilməsinin vacibliyini vurğulayıb. Hazırda ətraf mühit sahəsində müxtəlif tənqidi yanaşmalar və geosiyasi gərginliklər mövcuddur, lakin inkişaf tempini qorumaq və səmərəli həll yolları tapmaq zəruridir. Dünya iqlim məsələlərinə yeni baxış bucağından yanaşmalı və idarəçilikdə sadələşdirilmiş prinsipləri rəhbər tutmalıdır, çünki bəzən müasir populyar tendensiyalar milyonlarla insanın maraqları ilə ziddiyyət təşkil edir. Bu kontekstdə orta güclərin rolu önəmlidir. Bölgələrində ciddi nüfuza malik olan bu dövlətlər böyük dövlətlərlə strateji razılaşmalar əldə etmə potensialına malikdir və iqlim hədəflərinin həyata keçirilməsində həyati əhəmiyyət daşıyırlar. COP platforması iqlim dəyişikliyi ilə mübarizədə yeganə və ən mühüm imkandır və bu işlərin kiçik, çevik qruplarla icrası COP formatının əhəmiyyətini bir daha göstərir.

Panel iclas müzakirələrlə davam edib.

# İqtisadiyyatımız böyüyüb, gəlirlərimiz artıb

2026-cı ilin yanvar-fevral aylarında ölkəmizdə 18 milyard 473,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 1,4 faiz artıb. ÜDM istehsalının 32,7 faizi sənaye, 11,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi tikinti, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi informasiya və rabitə sahələrinin, 24,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 12,3 faizini təşkil edib.

Göründüyü kimi ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, yaradılmış əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi də artıb. Xüsusilə də qeyri neft-qaz sənayesində əlavə dəyər 5 faizə yaxın artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.




**ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, yaradılmış əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi də artıb. Xüsusilə də qeyri neft-qaz sənayesində əlavə dəyər 5 faizə yaxın artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir**

**Büdcədə bütün fiskal yığımlarda artım olub**

2026-cı ilin ilk 2 ayı ərzində fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 6,3 milyard manatı ötüb və büdcənin

icrasında müsbət dinamika davam edib. Xəzinədarlıq orqanları tərəfindən 147 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Belə ki, yanvar-fevral ayları ərzində dövlət büdcəsinin gəlirləri 6 milyard 311,5 milyon manat təşkil edib ki, bu da proqnozu 58,3 milyon manat və ya 0,9 faiz üstələyib. Dövlət büdcəsinin gəlirlərində vergi orqanının xətti ilə daxilolmalar 3 milyard manat təşkil edərək proqnozdan 79,5 milyon manat və ya 2,7 faiz çox olub.Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 2 milyard 286,5 milyon manatdan çox olub və büdcəyə proqnozdan əlavə 69,6 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 172,4 milyon manat və ya 8,2 faiz artıb. Yeri gəlmişkən, bu dövrdə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 0,7 faiz artaraq 865,4 min, aktiv ƏDV ödəyicilərinin sayı isə 2,1 faiz artaraq 59,6 min təşkil edib. Həmin tarixə aktiv təsərrüfat subyektlərininsayı 1,5  faiz artıb və  236,4 min olub ki, bu amillər də vergi yığımlarında mühüm rol oynayıb.

Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 983,1 milyon manat təşkil edərək proqnozdan 3,1 milyon manat və ya 0,3 faiz, Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 9,8 milyon manat təşkil edərək proqnozdan 0,9 milyon manat və ya 10,2 faiz, sair daxilolmalar 63,4 milyon manat olmaqla, proqnozdan 15,7 milyon manat və ya 32,9 faiz çox təşkil edib. Dövlət Neft Fondundan transfert isə 2 milyard 140 milyon manat olmaqla proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 113,2 milyon manat təşkil edərək proqnoza qarşı 73.5 faiz icra olunub. Bu dövr ərzində  icmal büdcənin gəlirləri 7 558,3 milyon manat, xərcləri  isə 5 338,4 milyon manat məbləğində icra edilib.

2026-cı ilin yanvar-fevral aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1 milyard 19,8 milyon manatdan çox olub, proqnozdan əlavə 20,8 milyon manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 706,1 milyon manatdan çox olub. Həmin dövrdə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 37,3 milyon manata yaxın təşkil edib, proqnozdan əlavə 1,5 milyon manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 29,9 milyon manatı ötüb. İcbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 163,3 milyon manatdan çox olub, proqnozdan əlavə 5,5 mln. manatdan artıq vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 115,7 milyon manata yaxın olub.

**Qeyri-neft ixracı 19,7 faiz çoxalıb**

2026-cı ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz artaraq 580,7 milyon dollar təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 30,5 faiz artaraq 200,6 milyon dollara bərabər olub. İxrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 328,6 faiz, pambıq iplik 158,7 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 110,8 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 37,4 faiz, pambıq lifi 33,3 faiz, meyvə-tərəvəz 32,7 faiz, spirtli və spirtsiz içkilər 10,9 faiz, çay 5,1 faiz artıb. Aqrar məhsullar üzrə ixrac 34,6 faiz artaraq 160,9 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 22 faiz artaraq 52,5 milyon dollar təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 31,2 faiz artaraq 213,4 milyon dollara bərabər olub.




**2026-cı ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz artaraq 580,7 milyon dollar təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 30,5 faiz artaraq 200,6 milyon dollara bərabər olub**

*E.CƏFƏRLİ*

# Ermənistan Azərbaycanın tələblərini yerinə yetirir...

## Sülhün imzalanması üçün maneələr aradan qaldırılır

Azərbaycanın 2020-ci ildə Cənubi Qafqazda yaratdığı yeni situasiya öz nəticəsini verməkdədir. 2022-ci ilin yazından başlanan sülh təşəbbüsləri artıq praktik olaraq reallaşır. 2025-ci ilin avqustunda Vaşinqtonda baş tutan Sammitdə paraflanan sülh sazişi nəticə etibarı ilə institusional şəkil almaqdadır. Bu, Ermənistanın siyasi rəhbərliyi tərəfindən də etiraf edilir. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyanın son açıqlamaları buna dəlalət edir. Nikol Paşinyan martın 11-də parlamentdəki çıxışı zamanı Azərbaycanla sülh müqaviləsinin imzalanacağına dair heç bir şübhəsinin olmadığını, hazırda bu istiqamətdə sakit və ardıcıl diplomatik iş aparıldığını bildirib. Paşinyan sənədin imzalanacağı tarixi bildirməsə də, prosesin geri dönməz olduğunu vurğulayıb. Qeyd edək ki, Paşinyan bu məsələyə Avropa Parlamentinin plenar iclasında çıxışı zamanı da toxunub. Bildirib ki, Ermənistan və Azərbaycan arasında sülh bərqərar olub, amma bu, gündəlik qorunma tələb edir. Paşinyan, həmçinin bəzi daxili qrupların sülhün mükəmməl olmaması ilə bağlı tənqidlərinə də toxunub. "Bizi Ermənistan və Azərbaycan arasında bərqərar olan sülhün mükəmməl olmamasına görə tənqid edirlər. Xahiş edirəm mənə deyin, mükəmməl sülh haradadır, mükəmməl sülh harada olub və nə vaxt mövcud olub?" Əksinə, məhz sülh arzusu onu mümkün qədər kamilliyə yaxınlaşdıra bilər", - deyə Nikol Paşinyan qeyd edib.

### Konstitusiyada dəyişiklik...

Qalib dövlət olan Azərbaycan həm regionun, həm də ümumilikdə Avrasiyanın geostrateji imkanlarını genişləndirir. Bakı revanşist ritorikadan çıxış etməyərək Ermənistanla münasibətlərin normallaşdırılması üçün konkret strateji yol xəritəsi təqdim etdi və bu da nəticə etibarı ilə, bölgədə davamlı sabitlik üçün ilkin meyara çevrildi. Bölgənin inkişafının sülhdən asılı olduğu qədər, sülhün də bir çox təsirlərdən qorunmasına ehtiyac var. İlk növbədə bölgədə davamlı sabit vəziyyət yaratmaq üçün Ermənistan rəsmi şəkildə Azərbaycan torpaqlarına əsassız iddiadan imtina etməlidir. Xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların aradan qaldırılması kimi bir addım zəruri xarakter daşıyır. Başqa sözlə, daimi sülh üçün həm də hüquqi baza möhkəm olmalıdır. Konstitusiya dəyişiklikləri, normativ sənədlərin uyğunlaşdırılması və cəmiyyətin sülhə hazırlanması bu prosesin ayrılmaz hissəsidir. Əks halda, imzalanacaq sənəd uzunömürlü olmaya bilər. Bu baxımdan sülh müqaviləsi regionun gələcəyi üçün həlledici sənəd olmalıdır.

Xatırladaq ki, Ermənistanın Müstəqillik Bəyannaməsi əsasında yazılan konstitusiya 1995-ci il iyulun 5-də qəbul edilib. Problem isə ondan qaynaqlanır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni, rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur.

Nikol Paşinyan son çıxışlarında bu məsələyə də toxunub. Hökumət başçısı bildirib ki, Ermənistanın yeni Konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinad edilməməlidir. İrəvanda keçirilən brifinqdə o, deyib ki, Müstəqillik Bəyannaməsi "münaqişə məntiqi üzərində qurulub" və bu məntiq əsasında müstəqil dövlət qurula bilməz. Paşinyan jurnalistlərə bu ay dərc olunması planlaşdırılan Ermənistan Konstitusiyasının yeni mətnindən Müstəqillik Bəyannaməsinin çıxarılması ilə bağlı mövqeyinin dəyişməyəcəyini vurğulayıb: "Bəli, yeni Konstitusiyada Müstəqillik Bəyannaməsindən bəhs edilməməlidir. Və niyə belə olduğunu izah edim: çünki Müstəqillik Bəyannaməsi münaqişə məntiqi üzərində qurulub. Biz münaqişə məntiqinə tabe ola və müstəqil dövlət qurmaq istəyə bilmərik".

### Onlara Ermənistan vətəndaşlığı veriləcək...

Erməni baş nazir uzun müddətdir ki, Ermənəistanda müzakirə olunan Qarabağı könüllü şəkildə tərk etmiş erməniəsilli insanlarla bağlı məsələyə də toxunub. O, Avropa Parlamentində çıxışı zamanı deyib ki, bu məsələ ilə bağlı strategiyamız çox aydındır: "Həmin insanlar Ermənistan vətəndaşlığını almalı və Ermənistan Respublikasında daimi məskunlaşmalıdırlar. Biz artıq onlar üçün köçürmə proqramına başlamışıq və bu günə kimi 4886 ailə bundan bəhrələnib. Sülhün möhkəmləndirilməsinə yönəlmiş bu məqsədə çatmaq üçün beynəlxalq tərəfdaşlarımızdan maksimum dəstək xahiş edirik".

Göründüyü kimi, bəzi xarici dairələrin xüsusilə "marağında" olan bu məsələ də artıq öz həllini tapır - Ermənistan hökumətinin bu yanaşması sülhün davamlılığına da müsbət təsir göstərəcək amillər sırasındadır.



### Bakının təşəbbüsü ilə meydana gələn layihə...

O ki qaldı, ötən ilin avqustunda Vaşinqtonda razılaşdırılan Zəngəzur dəhlizi (TRIPP) layihəsinə, bu istiqamətdə də işlər davam etdiriləcək. Paşinyan bildirib ki, TRIPP kommunikasiya proqramının hazırlanması hazırda yekunlaşmaq üzrədir, tezliklə Ermənistanla ABŞ arasında müvafiq saziş imzalanacaq və bundan sonra layihənin praktiki icrasına başlanacaq.

Bəlli olduğu kimi, adıçəkilən layihə məhz Azərbaycanın iradəsi və qətiyyəti sayəsində reallaşır - məhz Bakının prinsipial mövqeyi nəticəsində bu gün Cənubi Qafqaz qlobal güc mərkəzlərinin diqqətindədir. Eyni zamanda, Azərbaycanın Ermənistana yük daşınmasına icazə verməsi, neft məhsullarının ixracına başlanılması mühüm siyasi mesaj daşıyır. Bu addım göstərir ki, Azərbaycan regionda iqtisadi blokadalarla deyil, qarşılıqlı əməkdaşlıq prinsipi ilə hərəkət etməyə hazırdır.

Beləliklə, Şərqlə Qərb arasında yeni uzlaşma coğrafiyası, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsi kimi regionun geosiyasi əhəmiyyəti sürətlə artır. Bu kontekstdə sülhün yalnız regional deyil, qlobal təhlükəsizlik üçün də vacib amil olduğu aydın görünür.

*PƏRVİZ*

# Qlobal enerji bazarında kritik durum - strateji neft ehtiyatlarından istifadə olunması gündəmdə

Fevralın 28-də başlayan İran-ABŞ-İsrail müharibəsinin qlobal enerji bazarına göstərdiyi mənfi təsirlər yeni çağırışlar yaradıb. Bu təsirlərin əhatə dairəsinin genişlənməsinin qarşısını almaq üçün təcili tədbirlərin görülməsi zərurətə çevrilib. Əks halda qlobal iqtisadiyyat üçün ciddi problemlərin yaranacağı qaçılmaz olacaq. Buna görə də hazırda müvafiq beynəlxalq qurumlar və hökumətlər dəyərləndirmələr apararaq önləyici ssenarilərə keçid etməyi planlaşddırırlar.

Verilən məlumatlara görə, G7 qrupunun enerji nazirləri Yaxın Şərqdəki münaqişədən qaynaqlanan qlobal enerji təchizatına qarşı riskləri aradan qaldırmaq üçün Beynəlxalq Enerji Agentliyi (BEA) ilə əlaqələndirilmiş şəkildə bütün zəruri tədbirləri görməyə hazır olduqlarını bildiriblər. Onlar bu açıqlamanı çərşənbə axşamı BEA-ya rəhbərlik edən türkiyəli iqtisadçı Fatih Birol ilə regional böhranın qlobal enerji bazarlarına təsirini qiymətləndirmək üçün virtual görüş keçirdikdən sonra veriblər. Eyni zamanda, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Avropa Parlamentində çıxışında enerji qiymətlərinin aşağı salınması üçün variantların hazırlandığını bildirib.

## Tədarük azalır, daşımalar çətinləşir, qiymətlər artır

Müharibə qlobal enerji bazarının mənfi təsirlərə nə qədər həssas olduğunu bir daha təsdiqlədi. Cəmi bir neçə gün kifayət etdi ki, burada ciddi sarsıntılar müşahidə edilsin. Qlobal enerji bazarının İran-ABŞ-İsrail müharibəsindən belə tez və ciddi şəkildə sarsılması təsadüfi deyil. Müharibə İranda və ona bitişik regionda gedir. Körfəz ölkələri kimi səciyyələndirilən bu region dünya üzrə neft-qaz təchizatında mühüm paya malikdir. Digər vacib bir məqam ondan ibarətdir ki, enerji məhsullarının tranziti üçün ən optimal marşrutlardan biri sayılan Hörmüz boğazı da bu regionda yerləşir. Ayrı-ayrı dəniz keçidlərində yarana biləcək gərginlik və tıxaclar bəzii alternativ marşrutlar vasitəsilə azaldıla bilsə də, bunu Hörmüz boğazı barəsində demək mümkün deyil. Ötən ilin birinci yarısında bu boğazdan neft axını gündə orta hesabla 20,9 milyon barel təşkil edib. Bu həcm qlobal neft istehlakının təxminən 20 faizini və dəniz neft ticarətinin dörddəbirini təşkil edib. Eyni zamanda, dünya üzrə mayeləşdirilmiş təbii qaz təchizatının beşdə biri Hörmüz boğazı vasitəsilə təmin edilir. Hörmüzdən keçən neftin təxminən 80 faizi Asiya bazarlarına göndərilir. Çin burada ən böyük istehlakçılardan biridir. Müharibə tərəfi olan Amerika Birləşmiş Ştatları da Hörmüz vasitəsi ilə daşınan enerji daşıyıcılarının istehlakçıları sırasında yer alır. Bu ölkə ötən ilin birinci yarısında Hörmüz boğazı vasitəsilə Fars körfəzi ölkələrindən gündə orta hesabla 400 min barel xam neft və neft məhsulları idxal edib ki, bu da Amerikanın xam neft və kondensat idxalının 7 faizini təşkil edir. Körfəz regionunda yerləşən Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qətər, İraq və İran kimi ölkələrin enerji ixracı böyük ölçüdə bu marşrutdan asılıdır. Bu səbəbdən Hörmüz boğazında baş verə biləcək hər hansı gərginlik və ya nəqliyyatın məhdudlaşdırılması qlobal enerji bazarlarına və qiymətlərə dərhal təsir göstərir.



Hazırda müharibənin arealının genişlənməsi və Hörmüz boğazının faktiki olaraq bağlanması səbəbindən əksər körfəz ölkələri istehsalı azaltmağa qərar veriblər. Beləliklə də, istehsal-təchizat zəncirinin pozulması qlobal enerji bazarında sarsıntılara səbəb olub. Çox doğru olaraq davam edən müharibə dünya neft tədarükündə indiyədək qeydə alınmış ən böyük pozuntu kimi qiymətləndirilir. “Rapidan Energy” konsaltinq şirkətinin təhlilinə görə, ABŞ və İsrailin İrana hücumu nəticəsində neft tədarükündə yaranan fasilə tarixdə ən böyük göstərici olub. Bildirilir ki, bu pozuntu 1950-ci illərdə Yaxın Şərqdə baş verən böhran zamanı qeydə alınmış əvvəlki rekorddan iki dəfədən çoxdur. Verilən məlumata əsasən, ABŞ və İsrailin hücumlarının başlamasından sonra cəmi 9 gün ərzində dünya üzrə neft tədarükünün təxminən 20 faizi pozulub.

Qlobal enerji bazarında təklif tələbi qarşılamadığına görə qiymətlər sürətlə qalxır. Brent markalı neftin bir barel üçün qiyməti Rusiya-Ukrayna müharibəsindən bəri ilk dəfə olaraq 100 dollar səviyyəsini ötüb. Yaxın Şərqdəki gərginlik fonunda Avropada təbii qaz qiymətlərində də kəskin artım davam edir. “Köhnə qitə”də mavi yanacağın fyuçers qiymətləri ötən həftənin sonundan etibarən 60 faizdən çox bahalaşıb. Bu, 2023-cü ilin avqustundan bəri qeydə alınan ən böyük artım göstəricisidir, eyni zamanda, 2022-ci ilin enerji böhranından bu vaxtadək müşahidə olunan ən kəskin qiymət dalğalanmasıdır.

Ekspertlərin dəyərləndirmələrinə görə, enerji daşıyıcılarının tədarükündə yaranan çətinliklər aradan qaldırılmazsa, dünyada “domino effekti” qaçılmaz olacaq. Belə ki, qlobal iqtisadiyyatın həcmi azalacaq, iş yerləri bağlanacaq, mal və xidmətlərin qiymətlərində kəskin artımlar qaçılmaz olacaq ki, bu da insanların gəlirlərinin azalmasını, həyat səviyyələrinin aşağı düşməsini şərtləndirəcək. Beynəlxalq Valyuta Fondu bildirir ki, enerji qiymətlərinin 10 faiz artımı qlobal iqtisadi artımı 3,2 faizdən 3 faizədək azalda bilər. ABŞ-da neftin bir barelinin qiymətinin 125 dollar səviyyəsinə qalxması ÜDM-i 0,8 faiz azalda, inflyasiyanı isə 4 faizdən çox artıra bilər.

## G7 qrupu enerji təchizatı risklərini aradan qaldırmaqda israrlıdır

Dünyada qlobal enerji bazarında müşahidə edilən sarsıntılardan təsirlənən ölkələri iki qrupa bölmək mümkündür - yaranmış vəziyyətdən az təsirlənən və çox təsirlənən ölkələr. G7 ölkələri ikinci qrupa daxildirlər ki, bu da təsadüfi deyil. “Böyük yeddilik” adlanan qrupda ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, İtaliya, Fransa və Yaponiya kimi ölkələr yer alırlar. Yüksək sənaye potensialına malik olmaları bu ölkələrin enerji məhsullarına yüksək tələbatını şərtləndirir. Buna görə də G7 qrupunda birləşən ölkələr enerji məhsullarının təchizatına yaranan risklərin önlənməsinə israrlı mövqe sərgiləyirlər. O cümlədən çərşənbə günü baş tutan virtual görüşdə “Böyük yeddilik” ölkələrinin enerji nazirləri strateji neft ehtiyatlarının gələcəkdə istifadəsini dəstəklədiklərini bildiriblər. Bu addımın Yaxın Şərqdəki münaqişənin başlanğıcından bəri neft tədarükünün və bazar dalğalanmalarının azaldılması üçün atılmasının vacibliyi qeyd olunub.

Bildirilib ki, G7 ölkələri Beynəlxalq Enerji Agentliyi (IEA) ilə birgə enerji bazarındakı tendensiyaları yaxından izləyir, qrup daxilində, beynəlxalq tərəfdaşlarla və IEA-ya üzv ölkələrlə əlaqələndirir.




Vurğulanıb ki, IEA-nın strateji neft ehtiyatlarının istifadəsi ilə bağlı təşəbbüsü mövcud təchizat təhlükəsizliyini və bazar şərtlərini qiymətləndirmək üçün vacib fürsət təqdim edir. Nazirlər strateji ehtiyatların istifadəsi də daxil olmaqla, vəziyyəti həll etmək üçün proaktiv tədbirlərin həyata keçirilməsini prinsipcə dəstəkləyirlər.

IEA-nın strateji neft ehtiyatlarının indiyə qədərki ən böyük həcmdə istifadəsini təklif etdiyi bildirilir. Ölkələrə təxminən 300-400 milyon barel neftin istifadə edilməsi təklif olunub.

Bundan başqa, Yaponiya bazar ertəsindən etibarən müstəqil şəkildə, G7-dən ayrı olaraq strateji neft ehtiyatlarını istifadə etməyə hazırlaşır. G7 ölkələri arasında Yaponiya ən yüksək strateji neft ehtiyatına malikdir. Ölkənin 200 gündən çox ehtiyacını ödəyə biləcək strateji neft ehtiyatı var.

Xatırladaq ki, Rusiya-Ukrayna münaqişəsi zamanı - 2022-ci ildə IEA-ya üzv dövlətlər 182 milyon barel həcmində strateji neft ehtiyatlarını istifadə etmişdilər.

## Aİ çıxış yolu axtarışında: Enerji qiymətlərini azaltmaq mümkün olacaqmı?

Avropa İttifaqı (Aİ) məkanı da qlobal enerji bazarında müşahidə edilən təlatümlərdən ciddi şəkildə təsirlənir. Avropanın onsuz da çətin olan gələn qış mövsümü üçün qaz ehtiyatlarını təmin etmək vəzifəsi daha da riskli və bahalı hala gəlib. ABŞ və İsrailin İrana qarşı müharibəsi mayeləşdirilmiş təbii qaz istehsalı və təchizatını pozur, bazar təklifini azaldır, qiymətlərin kəskin şəkildə artmasına səbəb olur.

“Kpler” analitiklərinin fikrincə, Avropadakı alıcılar bu yay anbarları doldurmaq üçün təxminən 700 mayeləşdirilmiş təbii qaz yükünə və ya 67 milyard kubmetrə bərabər miqdarda mayeləşdirilmiş təbii qaza ehtiyac duyurlar ki, bu da ötən illə müqayisədə təxminən 180 yük və ya 17 milyard kubmetr artım deməkdir.

Bu reallıqlar fonunda Aİ də vəziyyətdən çıxış yolları axtarmaqdadır. Xüsusilə də enerji xərclərinin azaldılması prioritet hədəflərdən biri kimi müəyyənləşdirilib. Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen Avropa Parlamentində çıxışında enerji qiymətlərinin aşağı salınması üçün variantların hazırlandığını bildirib. Qurum rəsmisi bu variantlar arasında enerji alışı müqavilələrindən daha yaxşı istifadə, dövlət yardımı, subsidiyalar və qaz qiymətlərinin məhdudlaşdırılması məsələlərinin yer aldığını açıqlayıb.

U.Lyayen İranda müharibənin ilk on günü nəticəsində qalıq yanacaq üçün əlavə xərclərin artıq üç milyard avroya çatdığını bildirib və Aİ üzvlərini bununla əlaqədar tədbirlər görməyə çağırıb.

“Bizim evdə istehsal edilən bərpaolunan enerji və nüvə enerjisinə yönəlmək qərarımız özünü doğrultdu. Amma qiymət şoklarından qorunmuş deyilik. Bu gün həm ev təsərrüfatları, həm də şirkətlər təzyiq altındadır. Ona görə də biz dərhal yardım göstərməliyik. Enerji xərclərini necə azalda biləcəyimizi hərtərəfli nəzərdən keçirməliyik”, - deyən U.Lyayen bu prosesdə qiymətin dörd komponentinin - enerjinin özünün qiyməti, şəbəkə ödənişləri, vergilər və rüsumlar, həmçinin karbon xərclərinə baxılmasının önəmini qeyd edib.

*Mübariz ABDULLAYEV*

# Böyüyən şəhərlər, azalan yaşıllıq!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır

Son illər urbanizasiya dünyada ən sürətlə inkişaf edən sosial-iqtisadi proseslərdən birinə çevrilib. İnsanların kənd yerlərindən şəhərlərə köçməsi, yeni sənaye və xidmət sahələrinin yaranması şəhərlərin sürətlə böyüməsinə səbəb olur. Bu proses iqtisadi inkişaf, texnologiyanın yayılması və həyat səviyyəsinin yüksəlməsi baxımından mühüm rol oynasa da, ekologiya üçün ciddi problemlər də yaradır.

**Şəhərlərin böyüməsi və təbiətə təzyiq**

Məlumdur ki, Urbanizasiya nəticəsində şəhərlərin ərazisi genişlənir və çox vaxt bu genişlənmə meşələrin, kənd təsərrüfatı torpaqlarının və təbii ekosistemlərin hesabına baş verir. Yeni yaşayış binaları, yollar və sənaye obyektləri tikildikcə yaşıllıq sahələri azalır. Bu isə havanın keyfiyyətinə, torpağın məhsuldarlığına və biomüxtəlifliyə mənfi təsir göstərir.

**Hava çirklənməsi və nəqliyyat problemi**

Müasir şəhərlərin ən böyük ekoloji problemlərindən biri hava çirklənməsidir. Avtomobillərin sayının artması, sənaye müəssisələrinin fəaliyyəti və enerji istehsalı atmosferə çoxlu zərərli qazların buraxılmasına səbəb olur. Bu qazlar iqlim dəyişməsinə, həmçinin insan sağlamlığına ciddi təsir edir. Xüsusilə, böyük şəhərlərdə toz hissəciklərinin artması tənəffüs xəstəliklərinin yayılmasına gətirib çıxarır.

**Su ehtiyatlarına təsir**

Şəhərlərin böyüməsi suya olan tələbatı da artırır. Sənaye, məişət və kənd təsərrüfatı ehtiyacları üçün daha çox su istifadə olunur. Eyni zamanda, kanalizasiya və sənaye tullantıları çaylara və göllərə qarışaraq suyun keyfiyyətini aşağı salır.




**Müasir şəhərsalmada çağırışlar və perspektivlər**

Bu günlərdə Bakı Dövlət Universitetində (BDU) “Urbanizasiya: müasir şəhərlərin çağırışları və perspektivləri” mövzusunda panel müzakirə keçirilib. Universitetdən bildirilib ki, tədbirdə Coğrafi ekologiya kafedrasının müdiri dosent Məhluqə Yusifova “Urbanizasiya və şəhərlərin ekologiyası” mövzusunda məruzə ilə çıxış edib. O, müasir şəhərsalma proseslərinin ekoloji mühitə təsiri, şəhər landşaftlarının transformasiyası və dayanıqlı şəhər inkişafı məsələlərinə elmi aspektdən toxunub.

Məruzədə qeyd olunub ki, şəhərsalma yalnız demoqrafik və iqtisadi proses deyil, təbii ekosistemlərin dəyişməsi, şəhər ekosistemlərinin formalaşması, atmosfer, su və torpaq mühitinə antropogen təsirlərin artması ilə xarakterizə olunan kompleks ekoloji prosesdir. Şəhərlərin sürətli genişlənməsi nəticəsində yaşıl zonaların azalması, hava çirklənməsi və resurslardan qeyri-səmərəli istifadə kimi problemlər aktuallaşır. Bu məsələlərin elmi əsaslarla araşdırılması şəhər ekologiyasının əsas tədqiqat istiqamətlərindən biridir.

M. Yusifova çıxışında bu mövzunun qlobal müstəvidə aktuallığını da vurğulayaraq 2024-cü ildə Azərbaycanda keçirilmiş COP29 çərçivəsində müzakirə edilən iqlim dəyişmələri, karbon emissiyalarının azaldılması və ekoloji dayanıqlılığın təmin edilməsi kimi məsələlərin şəhər mühitinin idarə olunması ilə birbaşa əlaqəli olduğunu diqqətə çatdırıb. Bildirib ki, bu il ev sahibliyi edəcəyimiz Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) kimi beynəlxalq platformada da inklüziv şəhər planlaşdırılması və ekoloji cəhətdən balanslaşdırılmış şəhər mühitinin formalaşdırılması əsas müzakirə mövzularından biri olacaq. Qlobal iqlim gündəliyi ilə şəhər inkişafı siyasətlərinin uzlaşdırılması müasir dövrdə həm ekoloji təhlükəsizliyin, həm də dayanıqlı şəhər idarəetməsinin prioritetlərindən biri hesab olunur.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin əməkdaşı, doktorant İmran Bayramov “Azərbaycanda şəhər planlaşdırması və şəhər məskunlaşmasının xüsusiyyətləri” mövzusunda çıxış edib. O, ölkədə şəhərsalmanın tarixi mərhələləri, şəhər məskunlaşmasının məkan xüsusiyyətləri və prinsipləri barədə məlumat verib. Şəhərlərin formalaşmasının yalnız inzibati və iqtisadi amillərlə deyil, həmçinin coğrafi mövqe, təbii resurslar, nəqliyyat-kommunikasiya şəbəkələri və regional inkişaf strategiyaları ilə sıx bağlı olduğunu bildirib. İ. Bayramov Azərbaycanın müxtəlif şəhərlərindən nümunələr təqdim edərək şəhərsalma prosesinin regional inkişaf, iqtisadi fəaliyyətin mərkəzləşməsi və infrastrukturun genişlənməsi ilə qarşılıqlı əlaqəsini izah edib.

Panel müzakirə çərçivəsində iştirakçılar tərəfindən mövzu ilə bağlı suallar ünvanlanıb, şəhərsalmanın yaratdığı çağırışlar və mümkün həll yolları ətrafında fikir mübadiləsi aparılıb.

Göründüyü kimi, urbanizasiya müasir dünyanın qaçılmaz prosesidir. Lakin şəhərlərin inkişafı ilə təbiətin qorunması arasında balans yaratmaq vacibdir. Əgər şəhər planlaşdırılması ekoloji prinsiplərə əsaslansa, urbanizasiya yalnız iqtisadi inkişafın deyil, həm də davamlı və sağlam gələcəyin təminatçısı ola bilər.

*Yeganə BAYRAMOVA*

Bizim müsahib

# Keçmişin naxışları, bu günün rəssamı

## Xalçanı oxumaq olur - gənc xalçaçı rəssam Könül Ramazanla MÜSAHİBƏ

Azərbaycan xalçaçılıq sənəti əsrlər boyu formalaşaraq milli mədəniyyətimizin ən qiymətli incilərindən birinə çevrilib. Bu ənənəni bu gün də gənc sənətkarlar yaşadır və inkişaf etdirirlər. Onlardan biri də gənc xalçaçı rəssam Könül Ramazandır.



O, əsərlərində qədim naxışların ruhunu qoruyaraq xalça sənətinə öz yaradıcılıq baxışını gətirir. Gənc rəssamla söhbətimizdə onun yaradıcılıq yolu və sənətə münasibəti haqqında danışdıq. Müsahibəmizi təqdim edirik.

**- Könül, rəssamlığa marağınız necə yarandı, ilk dəfə hansı yaşlarda özünüzü kəşf etdiniz?**

- Rəssamlığa marağım lap kiçik yaşlarımdan yaranıb. 2-3 yaşlı uşaqlar oyuncaqla oynayarkən, mənim seçimim həmişə qələm, albom olub. İlk dəfə 3-cü sinifdə özümü kəşf etdim. Abbas Səhhətin "Ayı və Şir" şeirinə illüstrasiya çəkmişdim. Müəllimlərim və valideynlərim şəkili mənim çəkdiyimə inanmırdılar.

**- Ailənizdən rəssamlıqla, ümumiyyətlə, incəsənətlə məşğul olan kimsə var?**

- Ailəmdə rəssam yoxdur, amma incəsənət adamları var. Qardaşım zərb alətləri ifaçısıdır. Nəslimizdə musiqiçi çoxdur, rəsm bacarığı olanlar da var. Yalnız mən bu sənətə ciddi yanaşdım. Buna görə də özümü xoşbəxt hiss edirəm.

**- Sonradan xalçaçı rəssam olmaq qərarına gəlmisiniz...**

- Rəssamlığın sahələrə bölünməsini istəmirəm. İstər xalça rəssamı, istər dekor rəssamı və s. Hamısının, ümumilikdə, bir adı var - rəssam. Mən xalçaçı rəssamam deyə bu o demək deyil ki, ancaq xalça üzərində rəssamlıq edirəm. Rəngkarlıq və qrafika işlərim də var. Hər janr mənə maraqlı gəlir və işləməyi sevirəm. Rəssamlıq Akademiyasının 1-ci kursunda oxuyarkən ixtisas seçimi etməli idim. Əvvəl düşünürdüm ki, Bədii Keramika sənəti mənə daha yaxındır. Lakin fikrimi dəyişdim, buna səbəb isə Azərbaycanın xalq rəssamı Eldar Mikayılzadə oldu. Onun unikal əsərlərini, xalça sənətinə olan sevgisini və bu sənətə gətirən yenilikləri gördüm. Və düşündüm ki, bu dahi insanın arxasınca getməliyəm. Beləliklə, ixtisas seçimim "Bədii Xalça"oldu.

**- Xalçaçılıq kifayət qədər qədim sənətdir, düşünürəm ölkəmizdə gənclərin bu sahəyə marağı elə də yoxdur...**

- Xalça bizim - türk dünyasının kod yaddaşıdır. Hamımız xalça üstündə böyümüşük. Elə bir ev yoxdur ki, orada xalça olmasın. Qədimdən günümüzə qədər gəlib çatmış ən möhtəşəm sənət əsəridir, deyərdim. Necə deyərlər, dünyaya xalça üstündə gəlmişik, dünyadan gedəndə də xalçaya bürünüb gedəcəyik. Azərbaycan xalçasını dünya xalçalarından fərqləndirən şey də odur ki, bizim xalçaları oxumaq olur. Gənc, istedadlı xalçaçılarımız, xalça rəssamlarımız yetişir. Müasir dövrdə qədimiliyi önə çıxartmaq tendensiyası var və burada xalça sənəti böyük yer tutur.



**- Ən çətin mərhələ hansıdır - eskiz, rəng seçimi, yoxsa toxuma prosesi?**

- Sadaladığınız bütün proseslər çox çətin başa gəlir. Eskizi yaratmaq özü mürəkkəb işdir. Elementləri bir-birinə uyğunlaşdırmaq, harmoniya yaratmaq lazımdır. Sonra isə rəng seçimi başlayır. Rəng seçimi də mürəkkəb işdir. Xalçanın kaloritini seçmək, rəng tonlarını düzgün qaydada istifadə etmək lazımdır. Toxumaq çox əmək tələb edən, səbr tələb edən işdir. İlmə vurmaq, ərqacı düzgün yerləşdirmək, xovu kəsmək bunlar hamısı xüsusi bacarıq, əl əməyi, göz nurudur.

**- Müasir dövrdə klassik naxışlarla eksperiment edirsinizmi?**

- Müxtəlif dekorativ əl işlərimdə, rəngkarlıq işlərimdə istifadə edirəm. Bu elementlər milli koloriti önə çıxarır. Bu da çox fərqli və gözəl görünür.

**- Qeyd etdiniz ki, müəlliminiz xalq rəssamı Eldar Mikayılzadə olub...**

- Bəli... Xalça rəssamlığı haqqında nə öyrənmişəmsə, Eldar Mikayılzadəyə borcluyam. Özümü xoşbəxt insan hiss edirəm ki, bu dahi insanın tələbəsiyəm. Ondan çox şey öyrənmişəm və öyrənməyə hələ də davam edirəm. Düşünürəm ki, E.Mikayılzadənin açdığı cığırla getmək çox məsuliyyətli işdir.

**- Tərziniz maraqlıdır, rəssam olduğunuz üçün belə seçmisiniz, yoxsa...?**

- Tərz məncə həm zövq məsələsidir, həm ruh məsələsi. İncəsənət insanları tərzinə görə bir az həmişə fərqlənirlər. Heç zaman hamı kimi olmağa can atmamışam. Bu mənə çox sıxıcı gəlir. Ola bilər ki, dediyiniz kimi sənətimin də bunda rolu olub. Rəssamlar fərqli görür dünyanı. Bir tərəfdən də mən geyimdə komforta çox üstünlük verirəm. Daxilimlə bərabər, xaricdən də rahat hüzurlu olmaq istəyirəm.

**- Cəmiyyətin "rəssam belə geyinməlidir" stereotiplərinə münasibətiniz necədir?**

- Məncə məhz rəssamlar elə cəmiyyətin stereotiplərini qırmaq üçündürlər. Rəssamın xüsusi forması yoxdur. Düzdür yaddaşlarda rəssamlar başda beretka, boyunda şarf taxan insanlar kimi qalır. Ya da üst-başı rəng içində köhnə libasda.. . Belə bir stereotipi, nə də qaydanı qəbul etmirəm. Hər insanın, xüsusən də rəssamların özünə məxsus tərzləri var. Məncə bu individualdır və zövqə bağlı bir şeydir.

**- Sizcə gələcəkdə süni intellekt və texnologiya rəsm sənətinə təsir edəcəkmi?**

- Süni intellekt məsələsi məni bir az qorxudur. Adından da bəllidir ki, "süni"dir. Süni intellektin təbii intellekti üstələyəcəyinə inanmıram. İnsan zəkası ilə də bir tutmaq olmaz bunu. İndi o qədər özünə rəssam deyənlər var ki, baxırsan min hiylədən istifadə edirlər. İnsanlar da buna inanır. Əsl sənətkar heç zaman özünü aldatmaz. Bəzi sahələrə həqiqətən də süni intellekt zərbə vuracaq. İstər kino sahəsi, istər musiqi sahəsi, istərsə də rəssamlıq. İnsan əməyinə ehtiyac qalmayacağı dövrə gəlirik. Bu çox qorxuludur. Amma hər şey bizim əlimizdədir.

**Söhbətləşdi: Havar Şəfiyeva**

# Ana qonan kəpənək

## İvan Turgenevin "Asya" povesti haqqında

Bu əsər adətən müəllifin "İlk sevgi" (1860), "Bahar suları" (1872) povestləriylə birgə nəşr olunur. Hər birinin müstəqil süjeti, ayrıca qəhrəmanları olsa da, məhəbbət mövzusunda yazılmış bu üç povest bir-birinə söykəkdir, bir növ trilogiyadır. Üçlüyün birinci bölümü də elə 1858-ci ildə işıq üzü görmüş "Asya" povestidir. Əsərləri birləşdirən təkcə mövzu ortaqlığı deyil, həm də hər üç povestdə (ələlxüsus ikincisində) avtobioqrafik elementlərdən bolluca istifadə olunmasıdır.

Rus ədəbiyyatında "Turgenevin qızları" deyə bir termin də formalaşıb. Həqiqətən, onun yaratdığı qadın obrazlarından nadir bir qalereya düzəltmək olar. Bu qadınların, qızların hər birinin müəllifin qüdrət barmaqlarıyla ayrıca xarakteri, bənzərsiz obrazı yaradılsa da, onları birləşdirən cəhətlər də az deyil. Bu cəhətlərin ən başlıcası budur ki, Turgenevin aşiq qızları həmişə qəhrəman, ideal axtarışındadırlar, özləri də həmin ideallar uğrunda əzablara qatlaşmağa, qəhrəmanlarına can fəda eləməyə müdam hazır görünürlər, bir şərtlə ki, qəhrəman fərari, qorxaq çıxmaya, ağ atlı oğlan atdan enib ulağa minməyə. Asyanın qardaşı əsərin təhkiyəçi qəhrəmanına bacısı haqqında belə deyir: "Bu qız başımın bəlasıdır. Özü də xalis barıtdır. İndiyəcən heç bir oğlanı bəyənməyib, ancaq vay o günə ki, birini sevə!.. Yox, Asyaya qəhrəman, qeyri-adi bir insan, ya da dağ yamacında sürü otaran şəkil kimi bir çoban lazımdır..."

Əsəri yazıçı təqribən bir illik ədəbi-bədii sükutdan sonra 1857-ci ilin yay-payız aylarında Almaniyanın Zinitsk şəhərində qələmə alıb. Elə hadisələr də həmin ölkədə - Reyn çayının sağ-sol yaxasındakı iki kiçik kurort şəhərində cərəyan eləyir. Müəllif şəhərlərdən birini Z., o birini L. kimi qələmə verir, əsəri öz dilindən danışan lirik qəhrəmanını isə N.N. adıyla oxucuya tanıdır. Asyanı Turgenevin bacısına da, nikahdankənar qızına da bənzədənlər var, ancaq onun gerçək prototipinin (əgər varsa) kimliyi bəlli deyil. Çox güman, yazıçı öz Qalateyasının palçığını ömründən keçmiş bir neçə diri obrazın şirəsiylə yoğurub.

***

Təhkiyəçi bizə iyirmi beş yaşında başına gəlmiş əhvalatı nağıl eləyir. İndi artıq o günlərdən iyirmi il keçib, onun indi qırx beş yaşı var: "Onda mən sərbəst həyata yenicə qədəm qoymuşdum, odur ki, baş götürüb xaricə getdim; fəqət o çağlar deyildiyi kimi, "təlim-tərbiyəmi başa çatdırmaq" üçün yox, sadəcə, Allahın dünyasına gözüm dolusu baxmaq istəyirdim. Canım sağ, yaşım cavan, özüm də şən idim, pulum bəs deyincəydi, qayğılar hələ başımı qatmamışdı, gözüm geridə qalmamışdı, ürəyim istəyəni eləyirdim, bir sözlə, çiçək açırdım. Onda ağlıma gəlməzdi ki, insan bitki-filan deyil, illər uzunu dönə-dönə çiçəkləyə bilməz...

Mən tamam məqsədsiz, plansız gəzib dolaşırdım; xoşuma gələn hər yerdə əylənirdim, təzə adamlar, təzə üzlər, məhz təzə sifətlər görmək arzumu duyarduymaz dərhal yerimi dəyişirdim. Məni ancaq adamlar maraqlandırırdı, qəribə abidələrdən, təmtəraqlı yığıncaqlardan zəhləm gedirdi... Təbiət mənə güclü təsir bağışlayırdı, fəqət mən onun tərifli gözəlliklərini, sərt yamaclı dağlarını, qayalı uçurumlarını, şırranlarını sevmirdim; istəmirdim təbiət əl-ayağıma dolaşıb məni bezdirsin. Əvəzində sifətlər, canlı insan üzləri - adamların danışığı, davranışı, gülüşü - bax bunlarsız keçinə bilmirdim..."

Təxminən yüz il sonra Uilyam Folkner də söhbətlərinin birində onu təbiət mənzərələrindən çox insan sifətlərinin, Nazim Hikmətin təbiriylə desək, insan mənzərələrinin cəlb elədiyini deyəcəkdi. Həmin cavabı verəndə Folkner Turgenevin əsərindəki bənzər məqamı xatırlamışdımı - bunu biz artıq heç vaxt bilməyəcəyik. Fəqət, istənilən halda bu bənzərlik bizə dahilər arasındakı mənəvi bağların, doğmalıq tellərinin necə möhkəm, qırılmaz olduğunu hər zaman xatırladacaq.

***

Əsəri bizə öz ömrünün ən parlaq, həm də ən kədərli səhifələri kimi nağıl eləyən cənab N.N. duyğulu bir aristokrat, yumşaq ziyalı, bunlarla yanaşı, kəskin dönüşlərə, romantik sıçrayışlara qadir olmayan qərarsız, qətiyyətsiz bir gəncdir. Müəllif bizə onun Rusiyada qoyub gəldiyi həyatıyla bağlı geniş məlumat vermir, bircə bunu öyrənirik ki, gənc dvoryan sevdiyi dul qadından müsbət cavab ala bilmədiyinə görə başını götürüb vətəndən uzaqlaşıb.

Onun səfəri heç bir məqsəd güdməyən, heç bir plan qurmayan, taleyini təsadüflər okeanının kor dalğalarına tapşıran, öz azadlığından sərxoş olan tənha rindin indiki zamana anarxist səyahətidir. Bu səyahət, şübhəsiz, rəmzi xarakter daşıyır - fərdin yoxluqdan zühurunu, varlıq adına illüziyaların sayrışdığı ötəri dünyaya səfərini, daha doğrusu, ezam olunmasını simvolizə eləyir. Qəhrəmana yox deyən həmin o dul qadın elə onu fani həyata ezamiyyətə göndərən doğmaca anasıdır.

Turgenevin anarxizm fəlsəfəsinə mənsubluğuyla bağlı ehtimalımızı "Atalar və oğullar" romanından danışanda əsaslandırmağa çalışmışdıq. Bu povest o romandan bir neçə il əvvəl yazılıb, ancaq elə buradan da onun dünyagörüşünün konturlarını, belə demək olarsa, fəlsəfi-ideoloji mənsubiyyətini sezmək olur. Bu kimi təmayüllər yalnız ağılla, quru düşüncəylə müəyyənləşmir, hər halda böyük adam öz böyüklüyünə bu yolla yetişmir - ona qalsa, Turgenev ixtisasca fəlsəfə mütəxəssisiydi, Hegel təliminin bilicisiydi, Şellinqlə dostluq eləyirdi, fəqət, klassik alman idealizminin bu iki nəhəng sütunuyla yaxından-uzaqdan simsarlığına baxmayaraq özü nə filosof, nə də idealist oldu. Onun ruhunun təyinatı bu deyildi, istedad onu ayrı səmtə çəkirdi. O, Hegelin, Şellinqin taxta çıxardığı həqiqətin təntənəsinə, onların nikbin Allahına, şər üzərində tarixi zəfərin labüdlüyünə inanmırdı. İctimai-siyasi baxışlarına görə Avropa liberalizminə yaxın olsa da, fəlsəfi dünyagörüşü sarıdan sağalmaz pessimist idi.

davamı növbəti sayımızda



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Şənbə üçün nəzm

***

Səmada rəqs edir bəyaz incilər,
Göylərdə dustaqdı gözüm inan ki.
Gecənin qaranlıq, yorğun əliylə,
Buluddan ilahi nur enir sanki ...

Yağır incə-incə qar dənələri ,
Qonur pəncərəmə titrək, utancaq.
Bir uşaq sevincdən atılıb, düşür
Bir uşaq hardasa üşüyür ancaq...

Ağardır dünyanı bu soyuq kəfən,
Gizləyir palçığı, gizləyir izi.
Göyün paklığına bürünüb bəşər,
Aldadır bu bəyaz sükutla bizi.

Bəlkə də göylərin bizə rəhmidir,
Günahlar gizlənir ağ örtük altda.
Bu qədər çirkabı başqa nə örtər?
Yaxşı ki, qar yağır hərdən həyatda.

***

Nə aldın, nə verdin min şükür etdim,
Nə nankor oldum, nə təkəbbür etdim,
Bir quru nəfəsə təşəkkür etdim,
Heç üzünə ağ olmadım, ilahi!

Bir də gördüm ömür artıq yarıdı,
Payız gəlib yarpaqlar da sarıdı,
Bu dünyada bu qız kimdən yarıdı?
Yar arxamda dağ olmadı, ilahi!

Bəs deyirdin qəlbin ahı ağırdı?
Ahım göydən yağış kimi yağırdı.
Eşidəsən məni deyə bağırdım!
Yerin, göyün dağılmadı, ilahi?!

Hirs içində bəs mən axı neynəyim?
Nə vaxtacan dil -dodağı çeynəyim,
Ha deyirəm susum, susum deməyim,
“Mən yaşadım, sağ olmadım”, ilahi!

***

Gözlərin yorulmadı?
Boylanmaqdan küçəyə,
Yenəmi dil tökürsən,
Yar gəlməyən gecəyə..

Sanma döyülər qapın,
O səs külək səsidir.
Ümid bu lal otağın,
Ən qərib kimsəsidir.

Səcdə etdiyin yollar,
Gözlərinə yad baxır.
Sənin ömür saatın
Daha boşluğa axır.

Allahdamı unutdu?
O qaranlıq küncünü.
Gözləmək - yavaş-yavaş,
Xərcləməkdir gücünü.

Gedənlər qayıtmağa,
bir bəhanə saxlamır.
Bu dünya ölüləri,
diriykən qucaqlamır.

Yığışdır e kimsəsiz,
yetim qalmış hissləri.
Yollar udur, qaytarmır,
itkin düşən kəsləri.

***

Neçə ağır burulğana düşmüşəm,
Yazıq ürək sütunundan titrəyib.
Xəyallarım, ümidlərim, dağılıb
Topla-topla bitməyib ki bitməyib...

Fırtınalar qamarlayıb ömrümü
Qaranlığa qərq olub e bu ürək.
Həsrətini üfürmüşəm səmaya,
Yeri-göyü dağıdacaq bu külək.

Ağlayıram için-için bu gecə,
Gur damlalar ürəyini döyəcək.
Xatırlasan bu sevdalı adamı,
Salamımı qulağına deyəcək...

Həyatdır da sevinci nə, qəmi nə
Qarışmısan gözlərimin nəminə,
Bu dənizdə batacağıq, əminəm!
Kirpiklərim üzgəcindir, yaxşımı?







*Səbinə Xosiyeva*

Qalardım narahat təlaş içində,
Səsini duymasam, görməsəm səni.
Bu yalan, vəfasız, zalım dünyada,
Kim belə sevəcək görəsən səni?

Soldu gözlərimdə açan çiçəklər,
Gedişin yazımı qışa çevirdi..
Bizi bu dünyada sanki yaradan,
Qoşa yaratmışdı, qoşa sevirdi.

Nə sevdim, sevildim o gündən bəri,
Sənsiz keçən günə ömür demədim.
Sənsə bircə dəfə, insafa gəlib,
Görəsən yaşayır, ölür, demədin ..

Yıxıldım kökümdən bir ağac kimi,
Yarpaqlar ələndi budaqlarımdan.
“Əlivida” söylədin o gün sən mənə,
Bir ömrü bitirdin dodaqlarında...

***

Nə su kimi axıb yolumu tapdım,
Nə də ki od olub çevrildim külə.
Gözümün yaşını sel kimi tökdüm,
Belə həyat verdim çiçəyə, gülə...

Heç bilmədim odam, yoxsa suyam mən,
Təzadlar içində yaşadım düzü.
Cahana can verən su oldum bəzən,
Bəzən həqiqətin yandıran üzü.

Bir ömrün içində nələr birləşir,
Su da öz içində alışıb yanır.
O qədər göz yaşın silir ki adam,
Sonra susuzluqdan bağrı odlanır.

Bu təzad içində dünya özü də,
Bəlkə də, ən böyük, ən ulu ovdur.
Yenə də şükür ki yanan qəlbimi,
Gözümün bir damcı yaşı ovudur.

# Oxucunun ürəyi

## Haradadır? Burada, öz içimizdə, yoxsa, Biləcəridən o yanda?



*Məqsəd Nur*

Oxcumuzun bir qismi Harri Potterlə, əcnəbi bədbeybətlər və Barbilərlə böyüyüb. Digər qismi isə böyüməkdədir. Amma hələ də ümid var ki, onların bir gözü də Biləcəridən bu yandadır. Hətta müxtəlif əcnəbi trendlərin içində itib-batan əksəriyyətin ruhu, qeyri-ixtiyari və ya ixtiyari şəkildə öz torpağının ətrinə, dadına və bal kimi dilinə elə bağlıdır ki, gözü ətrafdakı ən yaxşı nemətləri görsə də, yenə doymaq bilmir. Öz dilində böyük əsərlər oxuyub zövq almağı kim istəməz ki? Yaxşı mətnlər də dadlı yemək, doğma musiqi kimidir. Di gəl, hələ də azdır ki, azdır...

“Mədəniyyət -2040” Konsepsiyası Azərbaycanda dünya səviyyəli mətnlərin necə yaradılacağı yönünə də işıq salır. Lakin ortada olan ədəbi mətnlərimizin əksəriyyəti nə Biləcəriyə çatmağa, nə də qanadlanıb o yanlara uçmağa tələsir. Tələsənlər də Biləcəridən o yanı yamsılamaq məcburiyyətində qalır. Axı, başqa tərəfə getməyə nə hacət? Əvvəlcə evin içinə, sonra isə çölünə baxmaq yaxşı olmazmı?

Müasir nəşriyyat menecerlərinin sevdiyi bir anlayış var: “oxucunun ürəyinə girmək”. Görəsən, bu, necə olur? Müəllif öz ürəyini qoyub oxucunun ürəyinin döyüntülərini hiss etməlidir? Yoxsa, eləcə öz ürəyinin səsinə qulaq asıb yazısını yazmalıdır? Axı ürəklərimiz eyni torpaqdan, eyni ruhdan qidalanır. Bəlkə, o müəllif, sadəcə ətrafa boylanmalı, əvvəlcə oxucunun özü olub onlara qoşulmalı, oxuculardan biri olmalıdır?

Ədəbiyyat tarixi göstərir ki, yaxşı mətnlərin yaranması daha çox zəngin və qədim mədəniyyəti, tarixi, ziqzaqlı ictimai münasibətləri, hətta mürəkkəb çoğrafiyası olan ərazilərdə yarana bilir. Bu şərtlərin hamısı bizdə var. Üstünə də son otuz ilin keşməkeşlərini və möhtəşəm Zəfəri gəlsək, adama deyərlər, başqa nə çatmır? Lakin, tarix və təcrübə bizə deyir ki, nə ədəbi mətnin, nə də onu yazacaq müəllifin ortaya çıxmasını tezləşdirmək, necə deyərlər, “texniki baxımdan” mümkün deyil. Mümkün olsa da, sonrasında tarix həmin dövrü amansızcasına təftiş edir. Yəqin elə bu səbəbdən də təklif edilən mədəniyyət konsepsiyası mətni yarada biləcək “münbit şərait”ə “uyğun şərait” yaradılmasını nəzərdə tutur. Üstəlik, yazılacaq mətnlərin Biləcəridən o yanda necə satılacağınıın da qeydinə qalmaq yolları təklif edilir: “Azərbaycan ədəbiyyatının... araşdırılması, inkişafı və beynəlxalq aləmdə təbliği məqsədilə müasir yanaşmalara əsaslanan sistemli fəaliyyətin həyata keçirilməsi”.

“El bilir ki, sən mənimsən...”, yaxud “Məndə sığar iki cahan...” dedikdə neçə oxucunun ürəyi titrəyir? Məncə, kifayət qədər böyük bir oxucu kütləsinin. Bu, varımızdır. Bəlkə, bizə ürək titrədən deyil, beyin fırtınası yaradan mətnlər də lazımdır. Bəlkə, onda, Biləcəridən o yanlara da boylana bilərik?

# Təbiətin füsunkar gücü

## Dünyanın qeyri-adi çayları...

*Yeganə BAYRAMOVA*

Təbiətin ən füsunkar və canlı möcüzələri sırasında çayların xüsusi yeri var. Onlar sanki yer üzünün damarları kimi dağlardan başlayaraq vadilərdən, meşələrdən və düzənliklərdən keçib həyat daşıyırlar.



Min illərdir ki, çaylar insanlara su verir, torpaqları bərəkətləndirir və saysız-hesabsız canlıların yaşaması üçün şərait yaradır. Təbiətə möhtəşəm görüntü verən çaylar, eyni zamanda, insanların ruhunun yenilənməsinə, estetik zövqünə mühüm təsir göstərir.

Çaylar haqqında geniş və maraqlı məqamları qeyd etmək olar. Dünyada qeyri-adi görünüşləri ilə seçilən çaylar var. Hansı ki, bu çaylar özünəməxsus görüntüsü ilə diqqətləri cəlb edir, eyni zamanda, həmin ölkələrdə olan turistlərin marağına səbəb olur.

**Hər il göyqurşağı rənglərinə boyanır...**

Kolumbiyada yerləşən Kanyo Kristales çayı hər il göy qurşağı rənglərinə boyanır. Çay bəzən çəhrayı, yaşıl, sarı və mavi rənglərdə axır. Kanyo Kristales xalq tərəfindən “5 rəngli çay”, “Cənnətə doğru irəliləyən çay”, “Axan göyqurşağı” kimi də tanınır.

Çayın davamlı dəyişən rəngləri Kolumbiyanın xüsusi sehiri kimi açıqlansa da, əslində, iyun və noyabr ayları arasında reallaşan təbiətin bir möcüzəsidir. Yaz və yay aylarında qısa müddətə də olsa, rəngarəng açan “Alg” adlı bitki çayı göyqurşağına bürüyür. İl ərzində yosunabənzər bu bitkinin tünd yaşıl rəngdə göründüyü deyilir. Ancaq yağış mövsümü gəldiyində və su səviyyəsi artdığı zaman bitki çay üzərini örtən bənövşəyi, çəhrayı, sarı və yaşıl rənglər halında yayılır.

Quraq mövsümlərdə isə sular çəkildiyindən algların mövcudluğu azalır. Kolumbiyanın yağışlı mövsümündə çayın suları sürətlə axarkən alglar rəng dəyişdirmir. Yalnız sentyabr aylarında 2 və 3 həftə əlverişli şərtlərdə alglar rəngarəng bir görüntüyə sahib olur. Beləliklə, ortaya göyqurşağı kimi bir mənzərə ortaya çıxır.

**Yay aylarında donan çay**

Çinin Yunnan əyalətindəki Mavi Ay çayı turistlərin ən çox ziyarət etdiyi yerlərdən biridir. Mineral sularla zəngin olan çayı yağış yağanda ağ palçıqlar və digər maddələr ağ rəngə boyayır. Buna görə də onu yerli əhali (Naxilər) Ağ su çayı adlandırır.

Çay dağdan axan qar və buzların əriməsi ilə qidalanır. Çayın maraqlı tərəfi isə yay aylarından donmasıdır.

**Ən çirkli çay...**

Yeri gəlmişkən, Konqo ən dərin çay hesab olunur. Bundan başqa, dünyanın ən qısa çayı Rou adlanır. ABŞ-ın Montana ştatında yerləşən bu çayın qollarından birinin uzunluğu cəmi 17,7 metrdir. İndoneziyada olan Sitarium isə ən çirkli çaydır.

Yarlunq Sanqpo - ən yüksəklikdə yerləşən çaydır. Dəniz səviyyəsindən təxminən 3000 metr yüksəklikdədir. Rio-de-la-Plata isə ən enli çay hesab olunur. Uruqvay və Parana çaylarının qovuşması nəticəsində yaranan bu çayın eni 225 metrdir.

**Hansı uzundur, Nil yoxsa Amazon?**

Dünyada çoxlu çaylar var. Lakin onlar arasında hansının daha uzun olması maraqlıdır. Çayların uzunluğu isə müəyyən meyarlarla təyin olunur. Dünyanın ən uzun çayı hesab edilən Nil Afrikanın 10 ölkəsinin ərazisindən keçir və uzunluğu 6650 kilometrdir. Nilin iki əsas qolu var: Ağ və Mavi Nil.

And dağlarından başlayaraq Atlantik okeanına tökülən Amazon çayı isə ikinci ən uzun çaydır. Lakin bu məsələdə müəyyən fikir ayrılıqları var. Bəzi tədqiqatçıların fikrincə, Amazon çayı Nildən daha uzundur. Onun uzunluğu 6259-6800 kilometr arasında dəyişir.

Qeyd edək ki, bu gün Beynəlxalq Çaylar Günüdür. Bu ekoloji təqvim 1998-ci ildə təsis edilib. Beynəlxalq Çaylar Günü su hövzələri, onların problemləri barədə cəmiyyəti maarifləndirmək məqsədi daşıyır. Hər il bu günlə əlaqədar müxtəlif tədbirlər və aksiyalar keçirilir.

# Azercell qadınların yaradıcı inkişafına dəstək göstərir

***Lider mobil operatorun dəstəyi ilə “Her Art in Action” festivalının açılış mərasimi keçirilib***

Gender bərabərliyinin təşviqi və qadınların imkanlarının genişləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləyən Azercell bu dəfə “VarYox” incəsənət və mədəniyyət platformasının təşkilatçılığı ilə həyata keçirilən “Her Art in Action” festivalının tərəfdaşı qismində çıxış edir. Festival Azərbaycanda qadın rəssamlar üçün təhlükəsiz və inklüziv yaradıcılıq mühiti formalaşdırmaq, incəsənət və mədəniyyət sektorunda bərabər imkanların yaradılmasına töhfə vermək məqsədi daşıyır.

Layihənin açılışı 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təşkil olunan “Mənzərəyə açılan ev” adlı sərgi ilə başlayıb.

Açılış mərasimində tərəfdaş qurumların nümayəndələri, diplomatik korpusun üzvləri, incəsənət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azercell-in Korporativ Ünsiyyət departamentinin direktoru Sona Abbasova şirkətin qadınların inkişafına yönəlmiş təşəbbüsləri barədə məlumat verib:

“Qadınların ictimai həyatın müxtəlif sahələrində fəal iştirakı cəmiyyətin davamlı inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Azercell uzun illərdir qadınların təhsilinə, peşəkar inkişafına və liderlik bacarıqlarının gücləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləyir. Əminəm ki, “Her Art in Action” layihəsi qadınların yaradıcı potensialının üzə çıxarılması ilə yanaşı, milli mədəni dəyərlərimizin təbliğinə və beynəlxalq müstəvidə tanınmasına mühüm töhfə verəcək.”

Artıq üçüncü dəfə təşkil olunan “Her Art in Action” festivalı qadın rəssamların yaradıcılığının təşviqi və regionlararası mədəni əməkdaşlığın inkişafına xidmət edən beynəlxalq təşəbbüs kimi çıxış edir. Festival çərçivəsində beynəlxalq rəssamların da iştirak etməsi tədbiri fikir və təcrübə mübadiləsi üçün dinamik platformaya çevirir. Belə ki, sərgidə Azərbaycanla yanaşı müxtəlif ölkələri təmsil edən 27 yerli və xarici rəssamın əsərləri ziyarətçilərə təqdim olunub.



Qeyd edək ki, təşəbbüs “Azercell Telekom” MMC-nin, PAŞA Holding-in, Niderland Krallığının və İspaniya Krallığının Azərbaycandakı səfirliklərinin dəstəyi ilə həyata keçirilir.

“Her Art in Action” festivalı haqqında ətraflı məlumatla https://herartinaction.com/ saytında tanış ola bilərsiniz.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5023**
**Sifariş: 355**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova